

İnformasiya cəmiyyətinin bərqərar olması ilə əlaqəli proseslər əyani surətdə nümayiş etdirir ki, müasirlik və kreativlik, yüksək keyfiyyətli təhsil və işgüzarlıq olan yerdə gəncliyə xas yenilikçi düşüncə sivilizasiyanın bütövlükdə simasını dəyişdirə bilər. İnanıram ki, hazırda müasir dünyada qarşılaşdığımız bir çox problemlərin həlli məhz gəncliyin tükənməz enerjisi və qətiyyəti sayəsində həllini tapacaq.

**İlham Əliyev,**

Azərbaycan Respublikasının Prezidenti

## 2012/2013-cü TƏDRİS İLİNDƏ
### AZƏRBAYCAN RESPUBLİKASININ ALİ MƏKTƏBLƏRİNƏ DAXİL OLMUŞ TƏLƏBƏLƏRƏ
# PREZİDENT TƏQAÜDÜNÜN VERİLMƏSİ HAQQINDA
## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN
# SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" 2001-ci il 3 sentyabr tarixli 564 nömrəli Fərmanına uyğun olaraq qərara alıram:

1. 2012/2013-cü tədris ilində tələbə qəbulu imtahanlarında ixtisas qrupları üzrə ən yüksək nəticələr göstərmiş və Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş aşağıdakı tələbələrə Prezident təqaüdü verilsin:

Abbasova Fidan Sahib qızı
Abbasova Səbinə Elbəy qızı
Abdullah Simuzər Əli qızı
Abdullayev Coşqun Tahir oğlu
Ağazadə Vüsal Adil oğlu
Axundov Ayxan Asim oğlu
Axundov Bəhram Murad oğlu
Allahverdiyev Bəxtiyar Baba oğlu
Allahverdiyeva Surə Şəmsəddin qızı
Ataxanlı Elgün Zahid oğlu
Bağırlı Nigar İlqar qızı
Baxşəliyeva Reyhanə Ələkbər qızı
Bəşirli Leyla Elşad qızı
Bəylərova Zərrintac Elxan qızı
Cəfərli Əlibəy Azər oğlu
Dünyamalıyeva Nurlana Yasif qızı
Əbilova Nərmin Adil qızı
Əhmədli Əli Fuad oğlu
Əhmədov Elvin Aydın oğlu
Əhmədov Sadiq Təhmasib oğlu
Əliyev Cahangir Saleh oğlu
Əlili Əliqulu Mahmud oğlu
Əliyeva Eldanə Hüseyn qızı
Əliyeva Xeyransa Rafiq qızı
Əliyeva Kəmalə Kamal qızı
Əliyeva Sevinc Oruc qızı
Əliyeva Səlmi Mehman qızı
Əliyeva Ülviyyə Mübariz qızı
Əlizadə Zümrüd Mürşüd qızı
Əmirova Nərmin Elşad qızı
Əmişova Gülnarə Fərahim qızı
Gəraylı Lalə Elxan qızı
Haqverdiyeva Gülşən Xudaverdi qızı
Heydərli Elxan Cəbrayıl oğlu
Həsənova Ləman Habil qızı
Həsrətli Xanım Həzrət qızı
Hətəmova Tərgül Arzuman qızı
Hüseynov Şaiq İbrahim oğlu
Hüseynova Elnurə Rəfael qızı
Hüseynova Ruhəngiz Telman qızı
Hüseynzadə Ülvi Atababa oğlu
Hüsüzadə Fəhmin Əkbər oğlu
Xanlarzadə Xanlar Mehti oğlu
İbrahimli Nərmin Sabir qızı
İbrahimov Nicat İlrəvan oğlu
İsazadə Nurlan Namik oğlu
İsmayılov Rəşad Fəhrat oğlu
İsmayılzadə Tural Cavid oğlu
Kərimli Nəriman Akif oğlu
Kərimli Pərviz Elşad oğlu
Kərimov Elnur Telman oğlu
Knyazlı Nəriman Aydın oğlu
Qasımzadə İlhamə Sultan qızı
Qasımzadə Rövşanə Elşən qızı
Qədirli Bəhruz Adil oğlu
Qurbanov Böyükağa Həsənağa oğlu
Qurbanov Mais Rövşən oğlu
Mahmudova Günay Mustafa qızı
Mehdili Nihad Zöhrab oğlu
Mehdiyeva Dilbər İlqar qızı
Mehdiyeva Könül Fikrət qızı
Məmişov Rəşid Əlbala oğlu
Məmmədli Aytən Əhməd qızı
Məmmədli Emil Oqtay oğlu
Məmmədli Nigar Zakir qızı
Məmmədov Emin İlqar oğlu
Məmmədov Fərid Saleh oğlu
Məmmədov Həsənağa Vüqar oğlu
Məmmədov Samir Vahid oğlu
Məmmədov Turhan Zakir oğlu
Məmmədova Xatın Fərhad qızı
Məmmədova Lalə Emin qızı
Mirzəyev Tamerlan İftixar oğlu
Möhsümova Aytən İlham qızı
Muradov Kamran Fuad oğlu
Mütədayın Bahar İbrahim qızı
Nağızadə Kənanə Məhərrəm qızı
Nərgiz Məzahir qızı
Nəsibov Yaşar Mansur oğlu
Nizamov İlham İlqar oğlu
Novruzlu Nuranə Qərib qızı
Nuri Taleh Tacəddin oğlu
Orucov Qurban İbrahim oğlu
Oruczadə Kamil Şamil oğlu
Paşabəyli Əşrəf Saleh oğlu
Rəhimov Rza Rasim oğlu
Rəsulzadə Fəxriyyə Yaqub qızı
Rəşidov Anar Mərdan oğlu
Sadıqov Eltun Arif oğlu
Sarayev Qalib Yaşar oğlu
Səfərov Orxan Arif oğlu
Səlimova Pərnaz Adil qızı
Soltanova Aidə Ramiz qızı
Sultanlı Türkan İsgəndər qızı
Süleymanov Kərim Fazil oğlu
Süleymanova Vəfa Əmiraslan qızı
Şirəliyeva Nailə Heybət qızı
Tərlanlı Ümid Elman oğlu
Vəliyev Aydın Kərəm oğlu
Yusibzadə Elmar Elçin oğlu
Yusifli Səxavət Nizami oğlu
Zinharlı Eşqin Adil oğlu

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 15 sentyabr 2012-ci il**

*Fəxr edirəm ki, bizim Azərbaycanın istedadlı övladları var. Fəxr edirəm ki, Azərbaycanın gələcəyi bu qədər gözəl təməl əsasında qurulur. Siz bugünkü həyatınızla, təhsilinizlə, öz istedadınızı inkişaf etdirməklə Azərbaycanın gələcəyinin binasını qurursunuz.*

**Heydər Əliyev**

# QƏBUL İMTAHANLARINDA 600-dən YUXARI BAL TOPLAMIŞ GƏNCLƏR HAQQINDA MƏLUMAT

**ƏZİZ GƏNCLƏR!**

Sizi qəbul imtahanlarında yüksək nəticələr əldə etməyiniz, bilik yarışının öncülləri, yaxşıların ən yaxşıları səviyyəsinə ucalmağınız münasibətilə səmimi qəlbdən təbrik edirəm. Hamınıza gələcək həyatınızda və təhsilinizdə böyük uğurlar, möhkəm cansağlığı və xoşbəxtlik arzu edirəm. Qazandığınız müvəffəqiyyət sizin bundan sonrakı fəaliyyətinizin etibarlı bünövrəsidir. Sizin gələcəkdə yüksək səviyyəli mütəxəssis, alim, pedaqoq, ictimai və dövlət xadimi kimi yetişmək potensialınız vardır. Siz özünüzü ölkəmizin, xalqımızın qarşısında duran problemlərin həllində fəal iştirak etməyə hazırlamalı, bunun üçün ilk növbədə yüksək bilik və bacarıqlara yiyələnməyə davam etməli, yaxşı mütəxəssis olmağa çalışmalısınız.

Siz öz bilik və bacarığınız, təcrübəniz, özünüzə tələbkarlığınız, əməksevərliyiniz və çalışqanlığınızla şagirdlərə – gələcək abituriyentlərə örnəksiniz. Ümidvaram ki, ali təhsil pilləsində də siz tələbə həmkarlarınıza nümunə olacaqsınız.

Siz gənc həyatınızın ilk ən böyük imtahanından şərəflə çıxmısınız. Amma qarşıda hələ çox müxtəlif imtahanlar durur. Arzu edirəm ki, bu imtahanlardan da alnıaçıq və şərəflə çıxasınız.

Həyatda insan üçün ən qiymətli sərvət vaxtdır, daha dəqiq desək, vaxt ehtiyatının bolluğudur. Çünki görülən bütün işlər, qazanılan bütün uğurlar vaxt çərçivəsində əldə olunur. Bu baxımdan siz ən varlı insanlarsınız, çünki hələ 17-18 yaşınız var, gəncliyə xas zəngin vaxt ehtiyatına maliksiniz. Bu zəngin sərvəti itirmək, israf etmək olmaz. Çalışın həyatınızın hər anı səmərəli, mənalı və maraqlı keçsin, yeni-yeni nailiyyətlərlə zənginləşsin. Uğurlarınız davamlı, dayanıqlı və daimi olsun.

**M.Abbaszadə,**

**Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının sədri**

Bu il Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının yaradılmasının 20 ili tamam olur. Bu illər ərzində 2 milyondan çox insan TQDK-nın keçirdiyi imtahanlarda iştirak edib. Bu yubiley ilində daha bir qəbul kampaniyasına yekun vurulub. Yüz mindən çox abituriyentdən ən layiqliləri seçilərək ali təhsil müəssisələrinə qəbul olub. Qəbul imtahanlarında 1226 nəfər abituriyent 600 baldan yuxarı nəticə göstərib. Yüksək ballılar respublikanın, demək olar, bütün şəhər və rayonlarını, o cümlədən bəzi kənd məktəblərini təmsil edir. 600-dən yuxarı bal toplayanlar sırasında mülki ali təhsil müəssisələri ilə yanaşı, ölkəmizin xüsusi təyinatlı ali təhsil müəssisələrinə 16 nəfər, Türkiyə Respublikasının xüsusi təyinatlı ali təhsil müəssisələrinə isə 4 nəfər daxil olanlar da vardır. Yüksək nəticə göstərənlər I qrupda 234, II qrupda 297, III qrupda 350, IV qrupda 345 nəfərdir. 5 nəfər isə maksimal nəticə – 700 bal toplamışdır. Onların 2 nəfəri II qrupun, 1 nəfəri III qrupun və 2 nəfəri IV qrupun abituriyentləridir.

Yüksək bal toplamış gənclər aşağıdakı ali məktəblərə qəbul olmuşlar:

Azərbaycan Tibb Universiteti (336 nəfər)

Bakı Dövlət Universiteti (219 nəfər)

Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası (150 nəfər)

"Qafqaz" Universiteti (154 nəfər)

Bakı Ali Neft Məktəbi (116 nəfər)

Azərbaycan Dillər Universiteti (83 nəfər)

Azərbaycan Diplomatik Akademiyası (48 nəfər)

Azərbaycan Dövlət İqtisad Universiteti (45 nəfər)

Azərbaycan Dövlət Neft Akademiyası (14 nəfər)

Milli Aviasiya Akademiyası (14 nəfər)

Naxçıvan Dövlət Universiteti (13 nəfər)

M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialı (3 nəfər)

Azərbaycan Turizm İnstitutu (2 nəfər)

Xəzər Universiteti (2 nəfər)

Gəncə Dövlət Universiteti (2 nəfər)

Azərbaycan Memarlıq və İnşaat Universiteti (1 nəfər)

Azərbaycan Texniki Universiteti (1 nəfər)

Azərbaycan Dövlət Aqrar Universiteti (1 nəfər)

“Azərbaycan” Universiteti (1 nəfər)

Azərbaycan Respublikası Prezidentinin 15 sentyabr 2012-ci il tarixli Sərəncamı ilə bu il qəbul imtahanlarında ən yüksək nəticə göstərib ölkəmizin ali məktəblərinə qəbul olmuş 102 tələbə Prezident təqaüdünə layiq görülmüşdür.

Prezident təqaüdçüləri aşağıdakı universitetlərin tələbələridir:

Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası (28 nəfər)

Azərbaycan Tibb Universiteti (26 nəfər)

"Qafqaz" Universiteti (20 nəfər)

Bakı Ali Neft Məktəbi (11 nəfər)

Bakı Dövlət Universiteti (10 nəfər)

Azərbaycan Diplomatik Akademiyası (4 nəfər)

Azərbaycan Dövlət İqtisad Universiteti (2 nəfər)

Azərbaycan Dövlət Neft Akademiyası (1 nəfər)

*Bu gün Azərbaycan gəncləri biliklərə çox meyillidirlər.*
*Gənclərimiz istəyirlər ki, yaxşı mütəxəssis, yaxşı peşəkar olsunlar…*
*Gələcəkdə ölkəmizi gənclərimiz idarə edəcəklər.*
*Ölkəmizin necə inkişaf edəcəyi onlardan asılı olacaqdır.*

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***

# ƏN YÜKSƏK NƏTİCƏ GÖSTƏRMİŞ GƏNCLƏRLƏ MÜSAHİBƏLƏR

**Tələbə Qəbulu üzrə Dövlət Komissiyası ali təhsil müəssisələrinə yüksək balla qəbul olan gənclərin ictimaiyyətə tanıdılması, təcrübələrinin öyrənilməsi və yayılmasına həmişə böyük önəm verir və bu məqsədlə hər il bir sıra tədbirlər həyata keçirir.“Abituriyent” jurnalının bu sayı bütünlüklə onlara həsr edilir.**

**Qəbul imtahanlarında 600-dən yuxarı bal toplayanlar arasında elələri vardır ki, onlar maksimal nəticələr əldə ediblər. Bəs, bu gənclər kimlərdir və onlar başqalarından hansı keyfiyyətlərinə görə fərqlənirlər? Aşağıda əvvəlcə həmin gənclər haqqında məlumatları və onlarla aparılmış müsahibələri təqdim edirik.**



***Rza Rəhimov 1995-ci ildə Naxçıvan şəhərinin Şərur rayonunun Ərəbyengicə kəndində anadan olub. 2012-ci ildə Ərəbyengicə kənd tam orta məktəbini bitirib. Məktəbdə dərslərini əla qiymətlərlə oxuyub, bir sıra olimpiadalarda iştirak edib. Kimya fənni üzrə keçirilən olimpiadada respublika üzrə dördüncü yeri tutub, məktəbi gümüş medalla bitirib. Qəbul imtahanında 690 bal toplayıb. Bakı Ali Neft Məktəbinin “Neft-qaz mühəndisliyi” fakültəsinə qəbul olub.***

***Rza həm də 8-9 il şahmatla məşğul olub. Şahmat üzrə Azərbaycan çempionu olub, xaricdə keçirilən bir çox beynəlxalq yarışlarda iştirak edib.***

***- İlk öncə qəbula hazırlıq təcrübən haqqında məlumat ver, bu yüksək naticəyə necə nail oldun?***

*- Son 2 ildə şahmatdan ayrılmalı oldum və dərslərə daha çox fikir verməyə başladım. X sinifdən hazırlığa başladım və bütün imtahan fənləri üzrə repetitorların köməyi ilə hazırlaşdım. XI sinifdən isə müstəqil hazırlaşmağa başladım. Yalnız ingilis dili üzrə repetitor yanına gedirdim. Qarşıma məqsəd qoymuşdum ki, qəbul imtahanında 700 bal toplayacagam. Lakin imtahan zamanı texniki səhvlərə yol verdiyimdən 10 bal itirdim. Amma yenə də I qrup üzrə ən yüksək nətcə göstərən abituriyentlərdən biri oldum.*

***- Dərsə hazırlaşma rejimin necə idi, günün neçə saatını məşğələlərə sərf edirdin?***

*- Əvvəllər sutkada 18 saat məşğul olurdum. Lakin sonradan bu müddəti azaltdım, gündə 15 saat oxumağa başladım. Qəbul imtahanına az qalanda hazırlıq vaxtını daha da qısaltdım. Son 1-2 ay ərzində isə gündə 2-3 saat məşğul olmaq kifayət edirdi. Mən imtahana sistemli şəkildə hazırlaşmışam. Bu sistemi də özüm yaratmışdım. Qarşıma konkret məqsəd qoymuşdum. Məqsədə çatmaq üçün özümə iş rejimi qurmuşdum. Məsələn, səhər saat 9-da fizika fənni üzrə hazırlığa başlayırdım, daha sonra vaxtımı digər fənlər üzrə bölüşdürürdüm. Hər fənnə ən azı 1 saat vaxt ayırırdım. Amma əsas fənlərə daha çox vaxt sərf edirdim.*

***- Repetitorsuz hazırlaşmaq çətin deyildi? Çünki abituriyentlərin bir qismi deyir ki, repetitor olmadan hazırlaşmaq mümkün deyil. Bu fikirlə nə dərəcədə razısan?***

*- Bu fikirdə müəyyən həqiqət var. Repetitorsuz hazırlaşmaq, doğrudan da, çətindir. Mən 10-cu sinifdə hazırlığa getdim, əsas bazamı möhkəmləndirdim. Bundan sonra mənim üçün müstəqil hazırlaşmaq çətin olmadı. Bu işdə məktəbdə yaxşı oxumağım da mənə dayaq oldu.*

***Qəbul imtahanında yüksək bal toplayacağını gözləyirdin?***

*Sınaqlarda 652-670 bal toplayırdım. Qəbul imtahanında da yaxşı nəticə göstərəcəyimə inanırdım. Ancaq ən çox 670-675 bal toplayacağımı gözləyirdim, bundan yüksəyə isə ümid etmirdim. Amma yaxınlarım, qohumlarım 700 ballıq nəticə əldə edəcəyimi gözləyirdi. Sonda 690 ballıq nəticə əldə etdim.*

***- Əvvəllər şahmatla ciddi məşğul olurdunsa, niyə bu məşğuliyyəti davam etdirmədin?***

*- Şahmatla müəyyən müddət məşğul olsam da, sonradan bu məşğuliyyəti dayandırdım. Çünki mütəmadi olaraq şahmatla məşğul olmaq üçün Bakıda olmaq lazım idi. Naxçıvanda şahmatın inkişafı elə də yüksək səviyyədə deyildi. Hər dəfə kənddən şəhərə getmək çətin idi. Bu isə şahmata həvəsimin azalmasına səbəb oldu. İndi Bakıdayam. Dərslərimi qaydaya salandan sonra şahmatla məşğul olmaq barədə düşünə bilərəm.*

***- Kəndinizdə, rayonunuzda məktəb təhsilinin səviyyəsi necə idi?***

*- Mənim təhsil aldığım məktəbdə müəllimlər dərslərə ciddi yanaşırdılar. Dərsə davamiyyət, intizam çox möhkəm idi. Mən də heç vaxt dərsdən qalmırdım. İmkan olan kimi dərslərimi elə məktəbdə hazırlayırdım.*

***- Hazırlıq prosesində hansı vəsaitlərdən istifadə edirdin?***

*- 2008-ci ildən bəri TQDK-nın ixtisas qrupuma aid nəşr etdiyi bütün vəsaitlərdən, test kitablarından istifadə etmişəm və onların mənim hazırlığıma çox köməyi olub.*

***- Qəbul imtahanının təşkili necə idi? Sualların səviyyəsi nə dərəcədə asan və ya çətin idi?***

*- İmtahan yüksək səviyyədə təşkil olunmuşdu. Sualların içərisində çətinləri də, asanları da, orta səviyyədə olanları da var idi. Ancaq bəzi abituriyentlər lazımi səviyyədə hazırlıqlı olmadıqlarından hətta asan suallara da cavab verə bilmir və nahaqdan onların çətinliyindən şikayət edirdilər.*

***- Bundan sonrakı planların, məqsədlərin barədə nə deyə bilərsən?***

*- Qarşıma məqsəd qoymuşam ki, ingilis dilini yükək səviyyədə öyrənim. Bizim ali məktəb digər ölkələrin universitetləri ilə əlaqələr qurur. Burada bir neçə illik təhsildən sonra tələbələri xaricdə təhsil almağa göndərəcəklər. Ali məktəbdə yaxşı oxuyub neft-qaz üzrə mühəndis olmaq ən böyük arzumdur. Qəbul olduğum Bakı Ali Neft Məktəbi bu ildən fəaliyyət göstərir və inanıram ki, bu təhsil müəssisəsi gələcəkdə ölkənin neft-qaz sənayesinin inkişafı üçün layiqli kadrlar yetişdirəcək. Təbii ki, mən də belə kadrlardan biri olmağa çalışacağam.*

***Qardaşı Fəqan Rəhimovun Rza barədə dediklərindən…***

*Fəqan qəbul imtahanında Rzadan belə bir nəticəni gözlədiklərini dedi:*

*"O, qəbul imtahanında yüksək nəticə göstərərək bizim ümidlərimizi doğrultdu. Mən bir qardaş olaraq buna çox sevindim."*

*Fəqan qardaşının fərdi xüsusiyyətlərindən danışanda bildirdi ki, Rza düzgün, yalandan uzaq, inadcıl oğlandır. O, qarşısına qoyduğu məqsədə nail olmaq üçün var gücü ilə çalışır və hər bir işə məsuliyyətlə yanaşır.*

*Onun şahmata göstərdiyi marağına gəlincə, dedi ki, şahmat ona ailəsindən keçib, babası və atası yaxşı şahmat oynayıb: "Onlar bizi həmişə şahmat oynamağa həvəsləndirirdilər. Biz də onunla həvəslə məşğul olurduq. Amma sonralar müəyyən çətinliklər üzündən şahmat məşğələlərini buraxmağa məcbur olduq. İndi Bakıda ali təhsil alırıq. Çətinliklər müəyyən qədər azalıb. Yəqin ki, bundan sonra şahmata da vaxt ayırmaq mümkün olacaq. İndi biz burada bir-birimizə dayağıq, hər zaman bir-birimizin yanındayıq.*

*Fəqan qardaşının gələcəyini seçdiyi ixtisas üzrə gözəl bir mütəxəssis kimi görmək istəyir. "Arzu edirəm ki, o, cəmiyyətə yararlı bir vətəndaş olsun. Bunun üçün mən ona böyük qardaş kimi hər bir köməklik göstərməyə hazıram.*



***Kamil Oruczadə 1994-cü ildə Lənkəran şəhərində anadan olub. Bakı şəhəri 91 saylı tam orta məktəbi bitirib. Aşağı siniflərdən dərslərini əla və yaxşı qiymətlərlə oxuyub. Kimya fənni üzrə olimpiada qalibi olub. Uşaqlıqdan dəqiq elmlərə, texnikaya böyük həvəsi olduğu üçün I ixtisas qrupunu seçib və qəbul imtahanında 690 bal toplayaraq bu qrupun öncüllərindən biri olub. Kamil "Qafqaz" Universitetinin "Kompyuter mühəndisliyi" ixtisasına qəbul olub.***

***- Kamil, necə oldu ki, imtahanda belə yüksək nəticə əldə edə bildin?***

- İlk növbədə onu deyim ki, qəbula hazırlaşarkən bütün vaxtımı, enerjimi dərslərə sərf edirdim. Mənim üçün boş vaxt anlayışı yox idi. Əgər boş vaxtım qalırdısa, yenə də əlavə suallar tapıb onları həll etməyə çalışırdım və ya nəsə əlavə bir şey oxuyurdum. Bilmədiyim, çətin qavradığım mövzuların üzərinə qayıdır və ya öyrəndiklərimi yenidən təkrarlayırdım. Fənlər arasında vaxt bölgüsü fərqli idi. Özümdən asılı olmayaraq daha çox fizikanı oxuyurdum. Digər fənlərin hərəsinə isə eyni qədər vaxt ayırırdım. Əsas fənlər üzrə hazırlıqdan sonra günümün 5 saatını əlavə kitablar oxumağa sərf edirdim. Yuxu və istirahət rejimim normal idi. Özümü zehni və fiziki cəhətdən yormamağa çalışırdım.

***- Fikrincə, qəbul imtahanında yüksək nəticə əldə etmək üçün abituriyent nə etməlidir?***

- Ən əsası iradəli olmalı, qarşısına konkret məqsəd qoyaraq hazırlaşmalıdır. Hansısa mövzunu bilmirsə, "mən bunu bilmirəm" – deyib keçməməlidir. Bilmədiklərini öyrənməyə, araşdırmağa çalışmalıdır. Özünə inamlı və iradəli olmalıdır ki, belə maneələri dəf edə bilsin.

***- Yüksək bal toplayacağın nə dərəcədə gözlənilən idi?***

- Məndən əvvəl də qohumlarımızdan yüksək nəticə göstərənlər olmuşdu. Yəni, yaxın ətrafımızda belə təcrübə, nümunə var idi. Odur ki, məndən də yüksək nəticə gözləyirdilər. Sınaqlarda ən yüksək 683, ən az 594 bal toplamışdım. Odur ki, özüm, qohumlarım, yaxınlarım yüksək bal toplayacağıma inanırdıq. Mən də onların mənə bəslədikləri ümidləri doğrultdum, hətta daha yüksək nəticə əldə etdim.

***- Hazırlıq müddətində TQDK-nın vəsaitlərindən istifadə edirdin?***

- TQDK-nın vəsaitlərindən hər zaman istifadə etmişəm. Bu vəsaitlərdə materiallar yığcam və konkret verilir. Bəzi vəsaitlərdə isə həm də test tapşırıqları təqdim olunur. Bütün bunlar mənim qəbul imtahanına hazırlığıma çox böyük fayda verib.

***- Nə əcəb, ixtisas seçimində dövlət təhsil müəssisəsini deyil, "Qafqaz" Universitetini seçdin?***

- Məni ali məktəbdə təhsil mühitinin səviyyəsi həmişə maraqlandırıb. Həmişə də düşünmüşəm ki, ixtisas seçimində bu cəhətə önəm verim. Mən əvvəldən qarşıma məqsəd qoymuşdum ki, "Qafqaz" Universitetinin "Kompyuter mühəndisliyi" ixtisasına qəbul olum, belə də oldu. Bu təhsil müəssisəsi bəzi xüsusiyyətləri ilə məni özünə daha çox cəlb edir. Birincisi, ingilis dilli təhsilin olması, ikincisi, burada xarici əlaqələrin yaxşı qurulması və təhsili xaricdə davam etdirmək imkanının olması.

***- İmtahan şəraitindən razı qaldınmı? Ümumiyyətlə, bu sahədə nələrin dəyişməsini istərdin?***

- İmtahanlar yüksək səviyyədə təşkil olunmuşdu. Açıq tipli test tapşırıqlarının cavablandırılması daha artıq vaxt aparsa da, elə də çətin deyildi. Lakin imtahanların vaxtı dəyişdirilsə yaxşı olar, çünki isti havada imtahana hazırlaşmaq çətin olur. Bundan əlavə, istərdim ki, abituriyentlərə xaricdə təhsillə bağlı daha çox məlumat verilsin. Xaricdə təhsil üçün hansı ölkədə daha çox yer ayrılır, hansı sənədlər tələb olunur və s. məsələlər barədə ictimaiyyətə geniş şəkildə açıqlamalar verilməsinə ehtiyac var.

***- Qəbul imtahanına repetitorla hazırlaşmısan. Məktəbdə yaxşı oxuyan şagirdin repetitora nə dərəcədə ehtiyacı var?***

- Repetitor öyrəndiklərimizi təkrarlamaqda bizə köməklik edir. Bir sıra mövzular üzrə əlavə məlumat verir. Dərsləri xüsusi proqram və qrafik əsasında öyrədir. Məktəbdə nə qədər yaxşı oxusan da, qəbula hazırlıqla bağlı müəyyən problemlər yaranır. Bunları isə repetitor xidmətindən istifadə etməklə həll etmək olur. Repetitor xidməti abituriyentin daha yaxşı hazırlaşmasına şərait yaradır.

***- Aşağı siniflərdə yaxşı oxumadan, yalnız son siniflərdə hazırlaşmaqla yüksək nəticə əldə etmək mümkündürmü?***

- Mümkün deyil. Aşağı siniflərdə mütləq yaxşı oxumaq lazımdır ki, sonradan çətinliklər olmasın. Bundan əlavə, dərsləri, mövzuları sadəcə əzbərləmək düzgün deyil. Onları başa düşərək, dərk edərək öyrənmək lazımdır. Şagirdin bilik bazası əvvəldən yaxşı olduqda, son siniflərdə də, qəbul imtahanında da yaxşı nəticə əldə edə bilər.

**- Gələcək abituriyentlərə məsləhətlərin...**

- Son iki il ərzində dərsdən kənar işlərə vaxt sərf etməsinlər. Valideynlər isə övladları üçün normal şərait yaratsınlar. Yeməklərinə, istirahətlərinə, sağlamlıqlarına fikir versinlər. Valideyn uşağa daima "oxu, oxu" deməməlidir, onu danlamamalıdır, qorxutmamalıdır, əksinə, ruhlandırmalıdır, ona hər cür qayğı göstərməlidir. Abituriyent də bu qayğı və köməyin müqabilində var gücü ilə çalışmalı, valideynlərinin etimadını doğrultmalıdır.

***Haşiyə:*** *Kamil bir sıra fərdi xüsusiyyətləri ilə başqalarından seçilir. Qeyd edir ki, uşaqlıqdan fizikaya böyük həvəsi olub, elektrik enerjisi ilə bağlı işlərə maraq göstərib. Evdə bu sahədə görülən təmir işlərinə kömək edib, yenilikləri öyrənməyə çalışıb. Futbola maraq göstərib. Futbolu izləməkdən çox oynamağa üstünlük verib. Ölkədə futbolun yaxşı inkişaf etmədiyindən narazı olduğunu, buna təəssüfləndiyini vurğulayır. Kitab oxumağı sevdiyini bildirir. Son vaxtlarda Qurban Səidin "Əli və Nino" və Orxan Pamukun "Mənim adım qırmızı" romanlarını oxuduğunu deyir. Dedektiv əsərləri daha çox xoşladığını söyləyir.*

*Müsahibə zamanı Kamil öz gələcək planlarından da danışdı. Bildirdi ki, kompyuter mühəndisliyi ixtisası üzrə dünya əmək bazarında rəqabətqabiliyyətli proqramlar hazırlamaq onun ən böyük istəyidir. Ancaq bunun üçün hələ çox oxumağın, çox öyrənməyin vacib olduğunu da etiraf edir: "Hələ mən bu yolun başlanğıcındayam. Çünki bu sahə üzrə ilk addımlarımı atıram. Bu gün ölkəmizə kompyuter proqramlarının bir çoxu xarici ölkələrdən sifariş verilərək gətirilir. Bu sahədə öz proqramlarımız olsa daha yaxşı olar. Mən gələcəkdə ölkəmizə bu istiqamətdə fayda vermək istərdim".*



***Nərgiz Məzahir 1995-ci ildə Bakı şəhərində anadan olub. 2001-ci ildə 192 saylı tam orta məktəbin I sinfinə gedib. Sonradan təhsilini Türkiyə Dəyanət Vəqfi Bakı Türk Liseyində davam etdirib. Dərs əlaçısı olub, liseyi qızıl medalla bitirib. Bir çox olimpiadalarda iştirak edərək yüksək nailiyyətlər əldə edib. Qəbul imtahanında 700 bal toplayaraq maksimal nəticə göstərib. "Qafqaz" Universitetinin "Dünya iqtisadiyyatı" ixtisasına qəbul olub.***

***- Qəbulda yüksək nəticə əldə etmək üçün insanda hansı keyfiyyətlər olmalıdır?***

- Fikrimcə, əvvəla, insanda ona irsən keçən istedad olmalıdır. Ancaq yüksək nəticə qazanmaq üçün yalnız istedad kifayət deyil. Bundan əlavə, abituriyent çalışqan, zəhmətkeş, iradəli, səbirli, dözümlü olmalı və ən əsası özünə inanmalıdır.

***- Sənin hansı keyfiyyətlərin 700 ballıq nəticə göstərməyinə imkan verdi?***

- Təvazökarlıqdan kənar da olsa deməliyəm: istedadım var, ən başlıcası isə atamdan irsən keçmiş güclü yaddaşım var. Bir dərsi bir neçə dəfə oxumağıma ehtiyac olmur. Onu bir dəfə oxumaqla yadda

saxlayıram. Eyni vaxtda diqqətimi bir neçə yerə yönəldə bilirəm. Məsələn, dərsdə həm test işləyir, həm də müəllimin keçdiyi dərsə qulaq asıram. Üstəlik də çalışqanam, zəhmətkeşəm, məsuliyyətliyəm.

***- Qəbul imtahanında yüksək nəticə göstərəcəyinə əvvəldən inanırdınmı?***

- Əvvəllər inanmırdım, çünki ilk sınaqlarda 620-650 arası bal toplayırdım. Sınaq imtahanlarında açıq tipli suallar mənə müəyyən qədər çətin görünürdü. Sonuncu sınaqdan 2 ay keçdi və bu müddətdə mən çox hazırlaşdım. Çalışdım ki, proqram üzrə bilmədiyim mövzular, suallar qalmasın. Bu da mənim qəbul imtahanına inamla getməyimə səbəb oldu.

***- Sənin fikrincə, qəbula hazırlıqda repetitor xidmətindən istifadə etmək önəmlidir, yoxsa hansısa hazırlıq kursuna getmək?***

- Repetitorla hazırlaşmadığımdan bunun önəmi haqqında bir şey deyə bilmirəm. Fikrimcə, hər bir şagirdin, ən başlıcası, yaxşı baza təhsili olmalıdır. Belə olduqda, fərqi olmur hazırlığın hansı formasından istifadə edirsən: repetitor xidmətindən, yoxsa hazırlıq kursundan. Mən hazırlıq kursuna getməsəydim belə, məktəbdə oxuduğum biliklərə əsasən yüksək nəticə əldə edə bilərdim. Çünki baza təhsilim əvvəldən güclü idi. Ona görə də qəbula hazırlıq prosesində çətinlik çəkməmişəm, hər gün mənə 2-3 saat oxumaq kifayət edirdi. Qarşıma qoyduğum məqsədə çatmaq üçün son 1-2 ay ərzində daha çox çalışır və dərslərə əlavə vaxt ayırırdım. Onu da deyim ki, hazırlıq dövründə ailəmizdə mənim üçün hər cür şərait yaradılmışdı.

***- Bitirdiyin liseyin məzunlarının nəticələri yüksək olub. Bu, nə ilə bağlıdır?***

- Liseyimizdə nizam-intizam güclüdür, müəllimlər də dərslərə tələbkar yanaşırlar. Çalışırlar ki, şagirdlər yaxşı təhsil alsınlar.

***- Qəbul imtahanının məzmunu, test tapşırıqlarının çətinlik dərəcəsi barədə nə deyə bilərsən?***

- İki ildir tətbiq olunan açıq tipli test tapşırıqları dərslərin keyfiyyətli öyrənilməsinə mühüm təsir göstərir. Bununla belə, bu sualların həlli imtahanda çox vaxt aparır. Əgər gələcəkdə daha bir neçə fəndən açıq tipli suallar tətbiq edilərsə, bu zaman imtahan vaxtının uzadılmasına ehtiyac olacaq. Uşaqların müəyyən hissəsi mövcud vaxt daxilində sualları cavablandırmağı çatdırmırlar. Mən bunu bu il imtahanların gedişatında hiss etdim.

***- Gələcək abituriyentlərə deyiləsi sözlərin...***

- Hər kəs özünün çatışmayan cəhətlərini və daha çox nəyin üzərində çalışmalı olduğunu yaxşı bilməlidir. Bu yolla o, bilmədikləri üzərində daha çox çalışmalıdır. Abituriyent çalışqan olmaqla yanaşı, səbirli və iradəli olmalıdır. Özünü çox yormamalı, dərslərə fikir verməklə bərabər, sağlamlığının da qeydinə qalmalıdır.

*Nərgizin fərdi xüsusiyyətləri barədə…*

Nərgiz musiqi təhsili də alıb və 7 illik musiqi məktəbini qırmızı diplomla bitirib, boş vaxtlarında pianino çalır. Maraq dairəsi genişdir. Düzdür, ali məktəbə hazırlıq dövründə maraq və istəklərini bir qədər məhdudlaşdırıb. Ancaq həmin mərhələ artıq geridə qaldığı üçün bundan sonra yaqin musiqi ilə bağlı maraqlarının da ardınca getmək imkanı olacaq.

Maraqlıdır ki, Nərgiz ara-sıra özü də musiqi bəstələməyə həvəs göstərir. Klassik musiqiyə daha çox marağı var.

*Nərgiz öz gələcək karyerası barədə*

Mən gələcək karyeramı iqtisadiyyat sahəsi üzrə bir özəl şirkət yaratmaqda və ona rəhbərlik etməkdə görürəm.



***Orxan Səfərov 1994-cü ildə anadan olub. 2002-ci ildə Sumqayıt şəhərində I sinfə gedib. Sonuncu siniflərdə təhsilini Qazax rayonunun Ürkməzli kənd tam orta məktəbində davam etdirib. Əlaçı olub, məktəbi fərqlənmə ilə bitirib. II ixtisas qrupu üzrə qəbul imtahanında 700 ballıq nəticə əldə edib. "Qafqaz" Universitetinin "Sənayenin təşkili və idarəolunması" ixtisasına qəbul olub.***

***- Təhsilini kənd məktəbində aldığın halda, necə oldu ki, belə yüksək nəticə əldə etdin?***

- Mənim fikrimcə, şagirdin rayonda və ya şəhərdə oxumasının elə bir fərqi yoxdur. Əsas odur ki, istəyin və məqsədin olsun. İstək olarsa, rayon məktəbində oxumaqla da yüksək nəticə əldə etmək mümkündür. Qazax rayonunda savadlı, bilikli, hətta "İlin müəllimi" adına layiq görülmüş müəllimlər çoxdur. Belə müəllimlərin şagirdləri qəbul imtahanında da yüksək nəticə əldə edirlər.

***- Qəbul imtahanına hazırlıqda səni başqalarından fərqləndirən cəhətlər nələr idi?***

- Başqalarından elə də fərqli cəhətlərim olmayıb. Dərs rejimim də ümumi qaydalara uyğun olub. Hamı kimi mən də hər gün məktəbə gedirdim. Dərslərimi yaxşı oxuyurdum. Dərsdən sonra hazırlıqlar başlayırdı və saat 6-ya kimi davam edirdi. Yorulduğumu hiss edəndə dincəlirdim. Qısa istirahətdən sonra oxumağa davam edirdim. Dərs oxuyarkən çalışırdım ki, məndə zehni yorğunluq yaranmasın. Hətta bəzən yorulanda televizora baxır, futbol izləyirdim. Yuxu və istirahət rejimini düzgün qurmağa çalışırdım.

***- Günün təxminən neçə saatını dərslərə sərf edirdin?***

- Bu, gün ərzində dərslərin az və ya çoxluğundan asılı idi. Normalda dərsə 3-4 saat vaxt ayırmaq kifayət edirdi. II qrupda coğrafiya və riyaziyyat əsas fənlər olduğundan, bu fənlərə daha çox vaxt ayırırdım. Digər fənlərlə müqayisədə üstünlüyü onlara verirdim.

***- Bəzi abituriyentlər hesab edirlər ki, yüksək nəticə əldə etmək üçün hazırlıq zamanı gərək özünü çox şeydən təcrid edəsən. Səndə vəziyyət necə idi?***

- Elə uşaqlar tanıyıram ki, bütün günlərini dərsə sərf etsələr də, yüksək nəticə əldə edə bilməyiblər. Mənim, necə deyərlər, kitabla yatıb, kitabla durmağım olmayıb. Boş vaxtlarımda musiqiyə də qulaq asmışam. Çünki musiqi dinləmək həm mənəvi rahatlıq gətirir, həm də beynin dincəlməsinə imkan yaradır. Dərs oxuyarkən arada fasilə vermək lazımdır ki, fiziki və zehni yorğunluqdan azad olasan.

***- Özün əvvəlcədən belə yüksək nəticə gözləyirdinmi?***

- Sınaqlarda 620- 650 arası bal toplayırdım. Amma heç vaxt 650 baldan yüksəyə qalxa bilmirdim. Bunun səbəbkarı özüm idim. Hər dəfə sınağa gedəndə düşünürdüm ki, sınaqda 650-dən yuxarı bal toplamaq problem olmayacaq. Amma hər dəfə də diqqətsizliyə yol verir, hətta ən asan suallara belə səhv cavab yazırdım. Qəbulda isə vəziyyət başqa cür idi. Ciddi məsuliyyət hissi vardı. Sınaqlarda bu dərəcədə məsuliyyət hiss etmirdim, bu da istər-istəməz nəticəmə təsir edirdi. Hətta valideynlərim də qəbulda texniki səhvlər edəcəyimdən qorxurdular. Ancaq qardaşım hər zaman deyirdi ki, sınaqlar sadəcə hazırlıq mərhələsidir. O, mənim qəbulda yüksək nəticə qazanacağıma inanır və mənə dəstək olurdu. Belə psixoloji dəstək olanda isə insanda özünə inam güclənir və imtahanda daha diqqətlə işləyirsən. Qardaşımın məsləhətlərinin mənə çox köməyi oldu.

***- Abituriyent qəbula hazırlaşarkən daha çox nələrə fikir verməlidir?***

-İlk növbədə məktəbdə yaxşı oxumalıdır. 9-10-11-ci siniflərdə daha ciddi çalışmalıdır. Elə etməlidir ki, hazırlığın gedişində fənlər arasında boşluq yaranmasın. Sınaqlarda aşağı nəticə göstərsə də, ruhdan düşməməlidir. Çünki əsas qəbul imtahanıdır. Bir də ki, sınaqlarla qəbul arasında xeyli

müddət olur. Bu müddət ərzində isə abituriyent bilmədiyi çox şeyi öyrənə bilər. Əsas odur ki, qəbul imtahanına psixoloji və mənəvi cəhətdən hazırlıqlı olasan.

***- Çox zaman deyirlər ki, abituriyentin sınaq imtahanları ilə qəbulda topladığı ballar arasında fərq aşağı və ya yuxarı 20-30 bal olur. Bu fikirlərlə nə dərəcədə razısan?***

- Belə hallar çox olur. Amma mən çox uşaq tanıyıram ki, qəbulda sınaqda topladığı baldan 80-90 bal yuxarı toplayıb. Əksər uşaqlar qəbulda nəticələrini daha da yaxşılaşdırır. Məncə, sınaq imtahanları qəbula nisbətən çətin olur. Məsələn, bu il coğrafiya fənni istisna olmaqla digər fənlər üzrə suallar sınaqlardakından asan idi.

***- Hazırlıq prosesində TQDK-nın dərs vəsaitlərindən nə dərəcədə istifadə edirdin?***

- Mən həm məktəb dərsliklərindən, həm də TQDK-nın vəsaitlərindən istifadə edirdim. Bundan başqa digər əlavə ədəbiyyatları da oxuyur, onlardan da yararlanmağa çalışır, heç nəyi qaçırmaq istəmirdim. Düşünürdüm ki, hansısa bilmədiyimi başqa kitablardan öyrənə bilərəm.

***- Gələcəkdə qəbul qaydalarında nələrin dəyişməsini istərdin?***

- Son iki ildə qəbul imtahanlarında açıq tipli sualların tətbiqi uşaqları dərslərə daha məsuliyyətlə yanaşmağa sövq edib. Ola bilsin ki, ənənəvi test suallarını əzbərləməklə də cavablandırmaq olar, ancaq açıq tipli suallarda cavab variantları verilmədiyindən mövzuları daha dərindən öyrənməli olursan. Odur ki, açıq tipli sualların sayının artırılması daha məqsədəuyğundur. Bəlkə də bu, gələcək abituriyentlər üçün bir az çətin olar, amma açıq tipli suallar nisbətən asan olsa, onların sayını artırmaq olar. Əlbəttə, TQDK belə məsələləri həll edərkən elmi əsaslara söykənir, odur ki, bizim rəylərimiz müəyyən cəhətdən subyektiv xarakter daşıya bilər.

***- Gələcək abituriyentlərə məsləhətlərin...***

- Hazırlıq prosesində dərs oxumaqla istirahəti düzgün əlaqələndirsinlər. Tədris materiallarını düşünərək, dərk edərək oxusunlar, oxuduqlarını müntəzəm olaraq təkrarlasınlar ki, onları yadda saxlamaq mümkün olsun. İmtahanda həyəcanlanmasınlar, psixoloji cəhətdən hazır olsunlar. Məqsəd o deyil ki, hər kəs gərək 700 bal toplasın. Məqsəd yüksək nəticə əldə etmək olmalıdır.

***Haşiyə:*** *Orxanla müsahibə zamanı məlum oldu ki, ondan öncə qardaşı 636 balla ali məktəbə qəbul olub. Deməli, burada ailə ənənəsi, təhsilə ailədən gələn diqqət və qayğı da var. Bunun da, heç şübhəsiz, Orxanın yüksək nəticə qazanmasında müəyyən rolu olub.*

*Orxanla söhbət zamanı onun bəzi fərdi cəhətləri də diqqətimizi cəlb etdi. Boş vaxtlarında futbol izləməyə maraq göstərir. Hər zaman intelektual oyunları izləyir, məlumatlılıq səviyyəsini artırmağa, dünyagörüşünün geniş və əhatəli olmasına çalışır.*

*Orxan müasir gəncliyimizə münasibətini də bildirir. Bugünkü gənclərin əsas çatışmayan cəhətini onların az kitab oxumasında görür. Bəzi gənclərin zərərli vərdişlərə meyilli olduqlarından təəssüfləndiyini söyləyir. Vurğulayır ki, gənclərimiz vaxtlarını daha çox oxumağa, öyrənməyə sərf etməli, cəmiyyətə yararlı insan olmağa çalışmalı, intellektual səviyyələrini artırmağa, savadlı və bilikli olmağa səy göstərməlidirlər.*

*Orxan öz gələcək planları barədə də məlumat verərək bildirdi ki, bugünkü 700 ballıq nəticə onun uğurlarının başlanğıcı olacaq: "Bundan sonra daha da irəliyə gedəcək və çalışacağam ki, ölkəmiz üçün layiqli bir mütəxəssis olum."*



*Əliyeva Xeyransa Rafiq qızı 1994-cü ildə anadan olub. 72 saylı tam orta məktəbi bitirib. I sinifdən XI sinfə kimi əla qiymətlərlə oxuyub, sinif nümayəndəsi olub. Olimpiadalarda iştirak edib və yüksək uğurlar qazanıb. XI sinifdə idman fənnindən 4 qiyməti aldığı üçün qızıl medala layiq görülməyib. Qəbul imtahanında 700 ballıq nəticə göstərən Xeyransa Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Hüquqşünaslıq" fakültəsinə qəbul olub.*

*- Qəbul imtahanına hazırlıq dövründə nələr etdin ki, belə yüksək nəticə göstərdin?*

- Məktəb illərində birinci sinifdən başlayaraq on birinci sinifə kimi dərslərə məsuliyyətlə yanaşır, verilən tapşırıqları vaxtında və keyfiyyətlə yerinə yetirirdim. Ona görə də yuxarı siniflərdə repetitorla hazırlaşanda sanki oxuduqlarımı təkrar edirdim. Qəbul imtahanında yüksək nəticə əldə edəcəyimə əmin idim. Sınaqlarda da hər zaman nəticələrim 600 baldan yuxarı olurdu. Son sınaq imtahanında nəticəm 668 bal olduğu üçün qəbul imtahanında da yüksək nəticə göstərəcəyimə tam əmin oldum, bir sözlə, 700 bal toplayacağımı gözləyirdim, çünki hər cəhətdən buna hazır idim.

***- Hazırlıq prosesində vaxt bölgüsünü necə aparırdın?***

- Bəzi abituriyentlər qəbul imtahanına hazırlıq dövründə gecə-gündüz çalışırlar. Amma mən heç vaxt belə etmirdim. Hazırlıqdan qayıdandan bir neçə saat sonra dərsləri hazırlayırdım. Ertəsi günə hansı fənlərdən dərs vardısa, onlara hazırlaşırdım. Dərsləri gün ərzində qısa istirahətdən sonra oxuyurdum. Lakin heç zaman gecələr dərs oxumur, yatmağa üstünlük verirdim ki, səhər yeni enerji ilə çalışım. Onu da deyim ki, hazırlıq dövründə gəzintiyə getmir, əyləncələrə, internetə vaxt ayırmırdım. Bir sözlə, ancaq dərslərlə məşğul olurdum. Məqsədim də imtahanda yüksək nəticə əldə etmək idi. Bu dövrdə ailəmiz də mənə hər cəhətdən dəstək olurdu. Mənim yüksək nəticə göstərəcəyimə inanır və məni ruhlandırırdılar.

***- Hazırlıq dövründə TQDK-nın vəsaitlərindən istifadə edirdin? Onların sənə nə kimi köməyi oldu?***

- "Abituriyent" jurnalının əksər sayları ilə tanış olmuşam. Hazırlanan dərsliklər, dərs vəsaitləri və test kitabçalarının hər birindən hazırlıq prosesində istifadə etmişəm. Qeyd edim ki, TQDK-nın bəzi tədris vəsaitlərində məktəb dərsliklərində olmayan məlumatlar da var. Bunlar, əlbəttə, faydasız deyil, ancaq TQDK-nın vəsaitləri ilə məktəb dərslikləri arasında fərq nə qədər az olsa, bir o qədər yaxşı olar.

***- Sınaqların və qəbul imtahanının keçirilməsindən razı qaldınmı və bununla bağlı hansısa təklifin varmı?***

- Həm sınaq imtahanları, həm də qəbul imtahanı yüksək səviyyədə təşkil olunmuşdu. Otaqlarda sakitliyə, qaydalara ciddi riayət olunurdu. Abituriyentlər üçün hər cür şərait yaradılmışdı. Amma düşünürəm ki, imtahanların vaxtı dəyişdirilib bir az tez keçirilsə, daha yaxşı olar. Çünki isti yay günləri dərs oxumaq üçün müəyyən çətinlik törədir.

***- Hüquqşünaslıq ixtisasını seçmisən. Bəzən deyirlər ki, bu qadın sənəti deyil. Sən bu fikirlərlə nə dərəcə razısan?***

- Hər hansı sənət sahəsində işləmək üçün, bəzi istisnalar nəzərə alınmasa, qız və ya oğlan olmağın fərqi yoxdur. Əgər insan çalışdığı sahədə işin öhdəsindən layiqincə gəlirsə, o, cəmiyyətə xeyir verə biləcək. Mənim uşaqlıqdan bu sahəyə böyük marağım var və mən gələcəkdə yaxşı hüquqşünas olacağıma inanıram.

*- Gələcək abituriyentlər yüksək natıcə əldə etmək üçün ən başlıcası nə etməlidirlər?*

- İlk növbədə aşağı siniflərdən yaxşı oxumalıdırlar. Bəzi uşaqlar elə düşünürlər ki, son 2 ildə hazırlaşmaqla yüksək nəticə əldə edə bilərlər. Bu, düzgün deyil. Aşağı siniflərdə zəif oxumusansa, yalnız son siniflərdə ciddi çalışmaqla yüksək nəticə əldə etmək çətindir. Bundan əlavə, imtahana hazırlıq dövründə dərslərə məsuliyyətlə yanaşmaq, tapşırıqlara vaxtlı-vaxtında əməl etmək, ən başlıcası isə imtahana sistemli, məqsədyönlü və hərtərəfli şəkildə hazırlaşmaq lazımdır.

Xeyransa ilə söhbət zamanı məlum oldu ki, o, boş vaxtlarında kitab oxumağı və musiqiyə qulaq asmağı çox sevir. Daha çox dünya ədəbiyyatı kitablarına müraciət edir, əcnəbi musiqi və müğənnilərə üstünlük verir. Uşaq vaxtlarından rəqs etməyə, rəsm çəkməyə marağı olsa da, müəyyən çətinliklər üzündən həmin istəklərini həyata keçirə bilməyib.

***Anasının Xeyransa haqqında dediklərindən....***

Xeyransanın əvvəldən yüksək bal toplayacağına inanırdım. Onu da deyim ki, o, hələ uşaqlıqdan başqalarından fərqlənirdi. Zehni, qavrayışı, yaddaşı möhkəm idi. Hiss edirdim ki, istedadlıdır. Bunların onun yüksək nəticə əldə etməsində mühüm rolu olub. Həddindən artıq məntiqli uşaqdır. Onu da deyim ki, aşağı siniflərdən dərslərini həmişə yaxşı oxuduğu üçün qəbula hazırlıqda çətinliyi olmayıb. Hazırlığa gedəndə sanki oxuduqlarını təkrar edirdi. Hər zaman məsuliyyəlti olduğu üçün istədiyi nəticəni əldə edirdi.

Xeyransanın anası qəbula hazırlaşan abituriyentlərin valideynlərinə bəzi tövsiyələr də verdi. Bildirdi ki, hazırlıq müddətində uşaqlara hər zaman dəstək olsunlar. Heç bir halda onları məktəb dərslərindən ayırmasınlar. Vaxtlı-vaxtında məktəbə göndərsinlər. Bəzən tanışlarım mənə deyirdilər ki, hava soyuqdur niyə uşaqları məktəbə göndərirsən? Mən isə belə məsləhətlərə məhəl qoymurdum. Məncə, uşaq məktəbdə verilən bütün dərslərə həmişə hazır olmalıdır. Xeyransa qarşısına məqsəd qoymuşdu ki, 700 bal toplayacaq. Mən də hər zaman ona dəstək olur və onu 700 bal toplayacağına ruhlandırırdım. Heç bir halda uşağı qorxutmaq lazım deyil, əksinə, ona kömək etmək və dəstək olmaq lazımdır.

Xeyransa söhbətin sonunda bundan sonra da əla qiymətlərlə oxumağa davam edəcəyini söylədi. Vurğuladı ki, bu gün topladığı 700 bal gələcəkdə daha yüksək nəticələr üçün bünövrədir. O, hüquq sahəsi üzrə yaxşı bir mütəxəssis olacağını bildirdi. Gələcək abituriyentlərə də uğurlar arzuladı, tövsiyələrini verdi: “Qarşılarına böyük məqsədlər qoysunlar və buna nail olmaq üçün var gücləri ilə çalışsınlar. Unutmasınlar ki, çəkilən zəhmət mütləq bəhrəsini verir.”



***Kamran Həmidov 1995-ci ildə Siyəzən şəhərində anadan olub. 2001-ci ildə Siyəzən şəhərində 1 saylı tam orta məktəbdə təhsilə başlayıb. Beşinci sinifdən isə təhsilini Bakı şəhərində yerləşən Türkiyə Diyanət Vəqfi Bakı Türk Liseyində davam etdirib. Qəbul imtahanında 700 bal toplayaraq rekord nəticə əldə edib. Azərbaycan Tibb Universitetinin “Müalicə işi” fakültəsinə qəbul olan Kamran sonradan Türkiyə ali məktəblərinə keçirilən müsabiqədən uğurla keçərək qardaş ölkənin Karadeniz Texniki Universitetində ali təhsil almaq hüququ qazanıb.***

***- Qəbul imtahanına hazırlaşarkən əsas məqsədin nə idi və məqsədinə çatmaq üçün hansı maneələri dəf etməli olmusan?***

- Öncə onu qeyd edim ki, beşinci sinifdən təhsilimi davam etdirmək üçün Bakıya gələndən sonra açığını deyim, yataqxanada, daha sonra kirayədə qaldım. 6 il müddətində 7-8 ev dəyişdim. Təbii ki, belə şəraitdə oxumaq mənim üçün asan deyildi. Lakin mən qarşıma məqsəd qoymuşdum ki, ümumi təhsilimi uğurla başa vurub universitetə daxil olacağam. Arzuma çatmaq üçün var gücümlə çalışıb, çox əziyyətlərə qatlaşmalı oldum. Ardıcıl, məqsədyönlü çalışmalarım öz bəhrəsini verdi və imtahanda rekord nəticə əldə etdim.

***- İmtahana gedərkən inanırdınmı ki, yüksək bal toplaya biləcəksən?***

- Sınaq imtahanlarında 666-670 bal, sonuncuda isə 695 bal toplamışdım. Qəbulda da yüksək bal yığacağıma əmin idim. Lakin, açığını deyim, 700 bal toplayacağımı gözləmirdim. İmtahandan iki saat sonra cavablarımı sual kitabçası əsasında yoxlatdıqdan sonra 700 bal topladığımı bildim. Ailəmiz, yaxınlarım, müəllimlərim məni 700 ballıq nəticə münasibətilə təbrik edirdilər. Sevincdən sanki uçmağa qanadım yox idi.

***- Abituriyentin imtahanda yüksək nəticə əldə etməsinin əsas amillərini sən nədə görürsən?***

- Birincisi, insanın dərs oxumağa daxili tələbatı olmalıdır. Məlumdur ki, hər insanda oxumağa, öyrənməyə maraq olmur. Bu, insanın ya genində olmalıdır, ya da tərbiyəsindən irəli gəlməlidir. İkincisi, insan qarşısına konkret məqsəd qoymalıdır: hara gedir, nəyə nail olmaq istəyir?! Məqsədini dəqiq müəyyənləşdirməlidir. Məqsədinə çatmaq üçün hətta bilmədiyi, sevmədiyi fənni də öyrənməlidir. Üçüncüsü isə, insanın möhkəm iradəsi olmalıdır. Bu iradə məqsədə çatmaq üçün qarşılaşdığı bütün maneələri keçməkdə ona mənəvi güc verməlidir.

***- Səndən öncə yaxınlarından belə yüksək nəticə göstərənlər olub?***

- Valideynlərimin hər ikisi ali təhsillidir və hər biri iki universitet bitirib. Həm atam, həm də anam tərəfdən tibb sənəti ilə məşğul olan qohumlarım çoxdur. Məndə də kiçik yaşlarımdan həkimliyə böyük maraq yaranıb. Valideynlərim də mənim həkim olmağımı istəyirlər.

Qəbul imtahanında maksimum bal topladığıma görə, ilk öncə, valideynlərimə təşəkkür edirəm. Onlar mənim əziyyətimi çox çəkiblər. Müəllimlərimə də səmimi minnətdarlığımı bildirirəm. Onların mənim üzərimdə təkcə təlim baxımından yox, həm də tərbiyə cəhətdən zəhmətləri var.

***- Sənin fikrincə, nə üçün çox zaman lisey məzunlarının qəbul imtahanlarındakı nəticələri digər məktəblərin məzunlarının nəticələrindən yüksək olur?***

- Əslində, Azərbaycanın digər məktəbləri ilə bizim lisey arasında elə bir fərq yoxdur. Eyni dərsliklərlə dərs keçirik, eyni proqram tədris olunur. Lakin bir şey var ki, bizim liseyin müəllimləri vəzifə və məsuliyyətlərini daha dərindən dərk edirlər. 40 dəqiqəlik dərs müddətində şagirdlər mütləq nəsə öyrənməlidirlər. Əgər şagird nəsə öyrənə bilmirsə, artıq müəllim buna görə məsuliyyət daşıyır.

***- Hazırlıq prosesində və ya imtahanda hansısa çətinliklərlə üzləşdinmi?***

- Hazırlıq prosesində qarşıma çıxan ən ciddi problemlərdən biri dərsliklərlə bağlı idi. Belə ki, köhnə və yeni dərsliklərdə məlumatın verilməsində fərqlilik var. Bu da şagirdlərdə çaşqınlıq yaratmaya bilməz. Digər bir məsələ: imtahan zamanı açıq tipli sualların həlli çox vaxt aparırdı. Bir açıq tipli sualın cavablandırılmasına sərf olunan vaxt təqribən beş-altı qapalı sualın həlli üçün sərf olunan vaxta bərabər idi. Odur ki, imtahanda hər fəndən 5 açıq tipli sualın salınması normaldır, amma onların sayı bundan çox olsa, bu, abituriyentlər üçün çətinlik yaradar. Açıq tipli suallar imtahanda şəxsən mənim üçün problem yaratmadı. İki saata testlərin hamısını, o cümlədən açıq tipli test tapşırıqlarını cavablandırdım.

***- Türkiyədə təhsil almağa üstünlük vermisən, bu nə ilə bağlıdır?***

- Türkiyədə oxumağa ona görə qərar vermişəm ki, məncə, orada təhsilin səviyyəsi daha yüksəkdir. Ali təhsil almaq şansı qazandığım Karadeniz Texniki Universitetində 6 il bakalavr, 2 il isə rezidentura səviyyəsində təhsil alacağam. Təhsilimi tam başa vurduqdan sonra isə Azərbaycana qayıdacağam. Ölkəmə tibb sahəsi üzrə yaxşı bir mütəxəssis kimi dönmək istəyirəm.

***- Öz təcrübənə əsaslanıb gələcək abituriyentlərə nə kimi məsləhətlər verərdin?***

- Hər bir abituriyent, ilk növbədə qarşısına konkret məqsəd qoymalıdır. Şəxsən mən qarşıma məqsəd qoymuşdum ki, "Müalicə işi" ixtisasına qəbul olacağam, buna da rekord nəticə ilə nail

oldum. Birinci sinifdən etibarən mən dərslərimi davamlı şəkildə yaxşı oxumuşam, hər zaman məsuliyyətli olmuşam. Heç vaxt dərsdən qalmamışam. Riyaziyyatdan heç bir hazırlığa getməmiş, məktəbdə öyrəndiklərimə əsasən imtahan vermişəm. Abituriyentlərə tövsiyəm odur ki, dərslərinə hər zaman məsuliyyətlə yanaşsınlar, verilən tapşırıqları vaxtında və keyfiyyətli şəkildə icra etsinlər, öyrəndiklərini müntəzəm olaraq təkrarlayıb möhkəm yadda saxlamağa çalışsınlar, test tapşırıqları, xüsusilə açıq tipli test tapşırıqları üzərində çox işləsinlər.

***Haşiyə:*** *Kamranla müsahibə zamanı etiraf etdi ki, o, təbiətən qapalı insandır. Ancaq bu, ona adamlarla dil tapmağa, ünsiyyət qurmağa mane olmur. Gəzməyi xoşlamır. Qeyd etdi ki, 7 ildir Bakıda olmasına baxmayaraq paytaxtı, demək olar ki, yaxşı tanımır. Sosial şəbəkələrdən istifadə etmir. Hesab edir ki, ona sərf olunan vaxtdan daha səmərəli yararlanmaq olar. İdman növlərindən stolüstü tennisi çox sevir.*

***Dostu Sərdarlı Kamilin Kamran Həmidov haqqında dediklərindən...***

IV qrup üzrə 700 ballıq nəticə göstərən Sərdarlı Kamil məktəb yoldaşı və dostu Kamran Həmidov haqqında dedi ki, o, dərslərə hazırlıqda çox məsuliyyətli idi. Birgə oxuduğumuz müddətdə onun dərsə hazırlıqsız gəldiyini heç vaxt görmədim. Ətrafdakı insanlara qarşı çox diqqətcildir. İmtahanlara məndən çox hazırlaşırdı. Dərsdən sonra Kamranla tez-tez tennis oynayırdıq. Nəticələrimiz hər zaman bərabər olurdu. Uzun illər bir partada oturmuşuq. Məktəbdə başlayan dostluğumuz bu günə kimi davam edir və inanıram ki, gələcəkdə də davam edəcək.



***Kamil Sərdarlı IV ixtisas qrupu üzrə rekord nəticə (700 bal) göstərən 2 abituriyentdən biridir. Türkiyə Diyanət Vəqfi Bakı Türk Liseyinin məzunudur. Məktəbi qızıl medalla bitirib. Kamil Sərdarlı Azərbaycan Tibb Universitetinə qəbul olsa da, sonradan təhsilini Türkiyənin Hacəttəpə Universitetinin tibb fakültəsində davam etdirmək qərarına gəlib.***

***- Qəbul imtahanından öncə yüksək nəticə göstərəcəyinə inanırdınmı?***

- İmtahandan əvvəl Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının təşkil etdiyi sınaqlarda iştirak edirdim. Burada hər zaman 600 baldan yüksək nəticə əldə edirdim. Qəbul imtahanında da 650 baldan çox toplayacağıma əmin idim. Ancaq 700 ballıq nəticə göstərəcəyimi gözləmirdim.

***İmtahanda yüksək nəticə əldə etmək üçün nələr etmək lazımdır?***

- Şagirdlər, ilk növbədə ibtidai siniflərdən yaxşı oxumalı və dərslərinə mütəmadi olaraq hazırlıqlı getməlidirlər. Aşağı siniflərdə yaxşı oxuyarsansa, 10-11-ci siniflərdə öyrənilən materiallar sənə təkrar kimi görünəcək. Bu yolla da imtahanda yaxşı nəticə əldə edəcəksən. Təbii ki, qəbul imtahanına ciddi hazırlaşmalı və qarşına qoyduğun məqsədə çatmaq üçün var gücünlə çalışmalısan. İmtahanda həyəcanlanmamalı, çox diqqətli olmalısan. İmtahanda yüksək nəticə əldə etmək üçün, məncə, üç amil əsasdır: diqqət, məsuliyyət və inam. Bunların üçü də olduqda uğurlu nəticə əldə etmək mümkündür.

***- Bu il sizin liseyin 3 məzunu qəbul imtahanlarında 700 bal toplayıb. Fikrincə, məzunlarınızın nəticələrinin yüksək olması nə ilə bağlıdır?***

- Bizim məktəbin nəticələri hər il yüksək olur və inanıram ki, bu, gələcəkdə də belə olacaq. Liseyimizdə həm müəllimlər, həm də şagirdlər dərslərə böyük məsuliyyətlə yanaşırlar. Qayda-qanun, intizam möhkəmdir.

***- Gərək ki, repetitorla hazırlaşmamısan. Qəbul imtahanına müstəqil hazırlaşmaq çətin deyildi?***

- Doğrudur, repetitor yanına getməmişəm, özüm müstəqil hazırlaşmışam. Məktəbimizdə xüsusi kurslar təşkil olunmuşdu və boş vaxtlarımda bəzən oradakı məşğələlərə də gedirdim. Fikrimcə, yüksək nəticəni müstəqil şəkildə (repetitorsuz) hazırlaşmaqla da əldə etmək mümkündür.

***- Təhsilini Türkiyədə davam etdirmək istəyin nə ilə bağlıdır?***

- Türkiyənin Hacəttəpə Universiteti reytinq göstəriciləri çox yüksək olan ali məktəbdir. Belə bir universitetdə daha mükəmməl təhsil almaq mümkündür. Düzdür, tədris ingilis və türk dillərində aparılır. Buna görə bir il hazırlıq kursu keçmək lazımdır. Çalışacağam ki, bütün bu problemləri uğurla həll edim.

***- Hazırlıq dövründə vaxt bölgüsünü necə aparırdın?***

- Mən qəbul imtahanı ilə yanaşı Türkiyə ali məktəblərinə də hazırlaşdığım üçün vaxtım az olurdu.

***- Qəbul imtahanına hazırlaşan abituriyentlərə tövsiyələrin...***

- Bəzi abituriyentlər belə fikirləşirlər ki, repetitor yanına getmək kifayətdir. Amma ən əsas məsələ müəllimin verdiyi tapşırıqları yerinə yetirməkdir. Elə uşaqlar var ki, məşğələlərə gəlirlər, ancaq dərsləri hazırlamırlar. Bu da özünü aldatmaqdır, havayı vaxt itkisidir. Ev tapşırıqlarını vaxtlı-vaxtında yerinə yetirmək, məsuliyyətli olmaq lazımdır.

***Haşiyə:*** *Kamillə söhbətdən məlum oldu ki, o, futbol və tennis oynamağı sevir. Bunlardan isə futbola daha çox üstünlük verir.*

*Söhbət zamanı Kamil Sərdarlı gələcək arzu və məqsədlərindən də danışdı: "Xaricdə təhsili başa vurduqdan sonra Azərbaycana qayıdıb işləyəcəyəm. Orada öyrəndiyim bilik və bacarıqları Azərbaycanda tətbiq etməyə çalışacağam".*

***- Kamran Həmidovun Kamil Sərdarlı barədə fikirləri***

Kamil dostlarımın içərisində mənə ən yaxın olanıdır. O, həqiqi dostdur. İnsanlarla səmimi münasibət qurmağı bacaran, işlərinə məsuliyyətlə yanaşan bir gəncdir. Kamillə ortaq keyfiyyətlərimiz var. Bu da bizi bir-birimizə bağlayır. Hər ikimiz Türkiyədə təhsil alacağıq. İnanıram ki, dostluğumuz bundan sonra da davam edəcək.

***Müsahibələri apardı:***
***Könül Cəfərova***

***Tələbə Qəbulu üzrə Dövlət Komissiyası ənənəvi olaraq qəbul imtahanlarında 600-dən çox bal toplamış abituriyentlərlə anket sorğusu keçirmişdir. Sorğuda abituriyentlərdən qəbul imtahanına necə hazırlaşması (müstəqil, repetitorla, hazırlıq kurslarında), hazırlığın müddəti, qəbul üçün hansı motivasiyanı əsas tutması, ixtisas seçiminə kimlərin və nələrin təsir etməsi, imtahan suallarının məzmunu, çətinlik dərəcəsi, o cümlədən açıq tipli test tapşırıqları, imtahana ayrılan vaxt, imtahanda yaradılan şərait və s. barədə rəyləri soruşulub. Sorğuda bilik yarışı öncüllərinə qəbul imtahanına hazırlaşmaqla bağlı öz təcrübələrini gələcək abituriyentlərlə bölüşmək, məsləhət, tövsiyə, rəy, arzu və təkliflərini bildirməyə də imkan yaradılıb. Aşağıda anket suallarına cavablardan daha çox diqqət çəkən nümunələri, ardınca isə anket sorğusunda iştirak edib özü haqqında informasiya və foto şəklini təqdim edən hər bir yüksək ballı gəncin topladığı bal, qəbul olduğu ixtisas, bitirdiyi ümumtəhsil məktəbi haqqında məlumatları təqdim edirik.***

# Bilik yarışı öncüllərinin gələcək abituriyentlərə məsləhət və tövsiyələri

**Məmiyeva Gülay (I qrup, 662 bal)** – Abituriyentlər, ilk növbədə qarşılarına konkret məqsəd qoymalı, hədəflərini dəqiq müəyyən etməlidirlər. Məqsəd olmasa, irəli getmək olmaz. Qəbula hazırlaşan şagirdlərə demək istəyirəm ki, gələcəkdə yüksək bal toplamaq arzusundasınızsa, bu arzunun həyata keçməsinə buraxılış sinfindən yox, aşağı siniflərdən başlamaq lazımdır. Bir-iki il hazırlaşmaqla yüksək nəticə əldə etmək olmaz. Adətən, son təhsil ili gərgin keçir, istər-istəməz adamda yorğunluq yaranır. Fiziki cəhətdən, eləcə də ruhən yorğun olanda isə keyfiyyətli bilik əldə etmək mümkün olmur. Ona görə də qəbulda yüksək nəticə əldə etmək üçün səylər aşağı siniflərdən başlanmalıdır.

**Anar Abdullayev (I qrup, 653 bal)** –Qəbul imtahanına hazırlaşan abituriyentlər arzularının həyata keçməsi üçün səmərəli vaxt bölgüsü müəyyən etməlidirlər. Onlar yaxşı oxuduqları kimi, yaxşı da istirahət etməlidirlər. Bəzi əyləncə və məşğuliyyətlərdən uzaq olmalıdırlar. Proqram materiallarını kor-koranə əzbərləməməli, hər bir mövzunu dərk edərək öyrənməli və yadda saxlamalıdırlar.

**Samir Ağabalayev (I qrup, 665 bal)** - Abituriyent uğur qazanmaq üçün əzbərçilikdən qaçmalı, mövzuları dərk edərək öyrənməlidir. Biliklərinin davamlı və etibarlı olması üçün təkrara da vaxt ayırmalıdır. İmtahan zamanı sualı tam aydın dərk etməli və cavab verərkən çox diqqətli olmalıdır.

**Könül Əlizadə (I qrup, 642 bal)** – Mən TQDK-nın dərs vəsaitlərindən çox bəhrələnmişəm. İstərdim ki, gələcək abituriyentlər məktəb dərslikləri ilə yanaşı, TQDK-nın vəsaitlərindən də istifadə etsinlər, eləcə də mütəmadi olaraq test tapşırıqları üzərində müstəqil işləməyi öyrənsinlər.

**Əsgərova Sara (I qrup, 665 bal)** – Dərslərini səylə oxusunlar, hər mövzuya aid test nümunələri üzərində işləsinlər. Vaxtaşırı öyrəndiklərini təkrar etsinlər. Vaxt bölgüsündə istirahətə də yer ayırsınlar. İxtisası öz arzu və bilik səviyyələrinə görə müəyyən etsinlər.

**Nicat İsazadə (I qrup, 657 bal)** - İmtahanlara yaxşı hazırlaşmalarını və yalnız öz biliklərinə güvənmələrini tövsiyə edərdim, digər yardımçı üsul və vasitələrə ümid etmək özünü aldatmaqdır.

**Rəşad Cəlalov (I qrup, 619 bal)** – Gələcək abituriyentlərə məsləhət görərdim ki, bilik öyrənməklə yanaşı, istirahət etməyi də unutmasınlar. Hərdən musiqi də dinləsinlər, idmanla da məşğul olsunlar. Gümrahlıq və şən əhvali-ruhiyyə zehni gərginliyin aradan qaldırılmasına çox kömək edir. Əks halda, qəbul imtahanı kimi ciddi prosesdə yorğun və əzgin orqanizmlə istədiyin uğuru qazana bilməzsən.

**Nihad Əsədli (I qrup, 653 bal)** – Məncə, hər kəs öz bilik səviyyəsini düzgün müəyyən etməli, bacarıq və qabiliyyətinə uyğun ixtisas seçməlidir. Müvəffəqiyyət üçün zəhmətə qatlaşmaq, səylə oxumaq lazımdır.

**Cavid Məmmədli (I qrup, 652 bal)** – Ən başlıca məsələ odur ki, müəllimlərin verdiyi tapşırıqları vaxtlı-vaxtında və keyfiyyətlə yerinə yetirsinlər. TQDK-nın nəşr etdiyi dərs vəsaitləri və test topluları ilə daha çox işləsinlər.

**Gülnar Hüseynli (I qrup, 647 bal)** – Gələcək abituriyentlərə məsləhətim budur ki, məktəbdə tədris olunan bütün fənlərə eyni məsuliyyətlə yanaşsınlar. Çünki təməl ümumtəhsil məktəbində qoyulur. Repetitorun köməyi ilə hazırlaşmaq məktəbdə əldə edilən bilikləri daha da möhkəmləndirmək üçündür.

**Tərlan Ramazanlı (I qrup, 635 bal)** –Qəbul imtahanında uğur qazanmağın əsas şərtlərindən biri test tapşırıqları ilə işləmək bacarığıdır. Odur ki, hər bir abituriyent imtahana yaxşı hazırlaşmaqla bərabər, testlərlə işləməyi də öyrənməli, istər TQDK-nın keçirdiyi sınaq imtahanlarında, istərsə də müstəqil şəkildə bu bacarığa yiyələnməyə çalışmalıdır.

**İlkin Aslanlı (I qrup, 635 bal)** – Hər bir şagird məktəbdə oxuyarkən dərslərə ciddi yanaşmalı, mövzuları dərindən öyrənməlidir. Biliklərinin möhkəm olması üçün öyrəndiklərini müntəzəm olaraq təkrarlamalıdır. Abituriyentlərə ixtisas seçimində də diqqətli olmağı məsləhət görürəm.

**Aynaz Mirzəzadə (I qrup, 627 bal)** – Uğur qazanmaq asan deyil. Kim çox çalışır və zəhmət çəkirsə, istəyinə hökmən çatır. İnamla, səylə oxumaq və vaxtı düzgün bölmək lazımdır.

**Aysel Məmiyeva (I qrup, 619 bal)** –İnsanın özünə inamı olmalıdır. 600-dən yuxarı bal toplamaq üçün sistemli çalışmaq, daim axtarışda olmaq və bütün mövzuları dərindən öyrənməyə səy göstərmək lazımdır.

**Sevinc Əliyeva (II qrup, 680 bal)** - Məktəb proqramını yaxşı mənimsəməyə çalışsınlar. Mütəmadi olaraq sınaq imtahanlarında iştirak etsinlər. Qarşılarına çıxan maneələri müəllimlərinin və yaxşı oxuyan yoldaşlarının köməyi ilə aradan qaldırsınlar. Psixoloji cəhətdən sakit və rahat olmağa çalışsınlar.

**Rəfael Həzizadə (II qrup, 657 bal)** - Gələcək abituriyentlərə məsləhət görərdim ki, bütün sınaq imtahanlarında iştirak etsinlər, sınaq imtahanlarının özünə də ciddi hazırlaşsınlar, öyrəndiklərini sınağa qədər təkrar etsinlər.

**Tural Əhmədov (II qrup, 652 bal)** - Qəbul imtahanında yüksək nəticə əldə etmək üçün tədris materiallarını sistemli şəkildə oxumaq lazımdır. Abituriyent öyrəndiklərini mütəmadi olaraq təkrar etməli və sınaqlarda iştirak etməklə öz bilik səviyyələrini müəyyənləşdirməlidir.

**Mədinə Əmiraslanova (II qrup, 646 bal)** - Uğur qazanmağın ən birinci şərti özünəinamdır. Gələcək abituriyentlərə uğurlar arzulayıram və demək istəyirəm ki, hər zaman özünüzə güvənin, biliklərə dərindən yiyələnməyə çalışın.

**Şahin Bədirxanlı (II qrup, 645 bal)** – Vaxtlarını düzgün bölsünlər. Qəbula hazırlaşdıqları müddətdə bəzi məşğuliyyətlərdən (internet oyunları, əyləncə, qonaqlıq və s.) uzaq olsunlar.

**Cavid Babazadə (II qrup, 639 bal)** - Bütün sınaqlarda və qəbul imtahanında 3 saat oturmağı bacarsınlar. İmtahanda parta yoldaşı ilə ünsiyyət qurmasınlar, bir-birlərinə kömək

etmək fikrinə düşməsinlər. İmtahana kimi tədris proqramını mükəmməl şəkildə öyrənib başa çatdırsınlar.

**Pərvin Əzimzadə (II qrup, 629 bal)** –Tələbə olmaq arzusu ilə yaşayan şagird bu arzunun əlçatmaz olduğunu ağlına gətirməməlidir. Bilməlidir ki, hər şey onun özündən asılıdır. Bunun üçün imtahanlara ciddi hazırlaşmaq, TQDK-nın vəsaitlərindən istifadə etmək lazımdır.

**Zahid Oruczadə (II qrup, 626 bal)** – İmtahanlara salınan test tapşırıqları məktəb proqramına, eləcə də TQDK- nın qəbul proqramına tam uyğun olduğu üçün dərslik və əlavə vəsaitlərdəki materialları mükəmməl şəkildə öyrənmək lazımdır.

**Ceyhun Yardımlı (II qrup, 621 bal)** – Qəbul proqramının bütün mövzularını yaxşı mənimsəsinlər və "Abituriyent" jurnalındakı tövsiyələrə əməl etsinlər.

**Qəndab Hüseynova (II qrup, 619 bal)** – Gələcək abituriyentlər nəzəri biliklərə yiyələnməli, tədris proqramını dərindən mənimsəməli, öyrəndiklərini mühakimə yolu ilə əlaqələndirməyi bacarmalıdırlar. İmtahan zamanı isə çox diqqətli olmalıdırlar.

**Bəhruz Səlimzadə (II qrup, 619 bal)** – Gələcək abituriyentlər qəbul imtahanlarına planlı şəkildə hazırlaşmalı, keçilmiş mövzuları mütəmadi olaraq təkrarlamalıdırlar. Sınaq imtahanlarında mümkün qədər çox iştirak etməlidirlər. Bu, qəbul imtahanında həyəcan və gərginlikdən xilas olmaq üçün çox vacibdir.

**Eşqin İbrahimov (II qrup, 614 bal)** – İmtahan müddəti olan 3 saat gələcək uğurlarınızın başlanğıcı ola, əldə etdiyiniz nəticə valideynlərinizi, müəllimlərinizi, eləcə də sizi tanıyan hər kəsi məmnun edə bilər. Siz bunları motivasiya kimi qəbul edib imtahanlara səylə hazırlaşmalı, sınaq imtahanlarında mümkün qədər çox iştirak etməli, özünüzü 3 saatlıq bilik yarışına mükəmməl hazırlamalısınız. Tələbə olacağınıza sizdə dərin inam olmalıdır. İlk addımı da elə bu inamla atmalısınız.

**Əli Qocayev (II qrup, 614 bal)** – Qəbul imtahanına hazırlaşan abituriyentin, ilk növbədə dərs oxumaq üçün iş otağı, sakit və rahat şəraiti olmalıdır. İstirahət və yuxu da unudulmamalıdır. Abituriyent hər bir mövzunu mükəmməl qavramalı, öyrəndiklərini təkrarlamaqla daha da möhkəmləndirməlidir. İmtahanda səbir və iradə nümayiş etdirməlidir.

**Qorqud İsrəfilzadə (II qrup, 614 bal)** –Yüksək nəticələr əldə etmək abituriyentdən ciddi qətiyyət və böyük zəhmət tələb edir.

**Simuzər Abdullah (III qrup, 683 bal)** – Abituriyentlərə yalnız məktəb proqramları ilə kifayətlənməməli, eyni zamanda TQDK-nın abituriyentlər üçün hazırladığı vəsaitlərdən və test toplularından da istifadə etməlidirlər.

**Fatimə Zərbiyeva (III qrup, 670 bal)** – Tədris proqramlarındakı mövzuları maksimum mənimsəməlidirlər ki, imtahanda yüksək nəticə əldə edə bilsinlər. Hədəfə çatmağın yolu əzmkarlıq və çalışqanlıqdan başlayır. Yalnız səylə oxumaqla, tapşırıqları vaxtlı-vaxtında yerinə yetirməklə və sınaq imtahanlarında iştirak etməklə qarşıya qoyulan məqsədə çatmaq olar.

**Reyhan Ramazanova (III qrup, 668 bal)** – Məktəbdə gündəlik dərsləri yaxşı öyrənmək, verilən hər bir tapşırığı keyfiyyətlə yerinə yetirmək lazımdır. Bu, sizi günbəgün uğura yaxınlaşdıracaq. Son 2 ildə isə seçəcəyiniz ixtisas qrupuna aid fənlər üzrə hazırlaşmalı, tətbiq yönümlü test tapşırıqlarına xüsusi fikir verməlisiniz. Əlbəttə, istirahətə də vaxt ayırmaq lazımdır.

**Sevil Süleymanova (III qrup, 665 bal)** – Öz üzərlərində çox çalışsınlar. Hökm deyil ki, hazırlıq kurslarına və ya repetitor yanına getsinlər. Sadəcə olaraq, aşağı siniflərdən dərslərə ciddi hazırlaşmaq, müəllimlərin tapşırıqlarını vaxtlı-vaxtında yerinə yetirmək lazımdır.

**Rəfail Yusifov (III qrup, 649 bal)** – Əvvəlcə, məktəb proqramını öyrənməlisiniz, eyni zamanda TQDK-nın qəbul proqramı üzrə hazırlaşmalısınız. TQDK-nın nəşr etdiyi vəsaitlərdən yararlanmalısınız. Çünki elə mövzular var ki, bu vəsaitlərdə daha əhatəli və dəqiq işlənmişdir. Bir məsləhətim də budur ki, imtahana psixoloji cəhətdən də hazır olmalısınız.

**İfadə Tarverdiyeva (III qrup, 629 bal)** –Gələcək abituriyentlərə məsləhətim budur ki, yüksək bal toplamaq istəyirlərsə, sadəcə, lazımsız məşğuliyyət və əyləncələrə "yox" deyib, ancaq dərs oxumaqla məşğul olsunlar.

**Ayşən Məmmədova (III qrup, 617 bal)** – Hər bir abituriyent gərək, ilk növbədə qarşısında nə qədər məsuliyyətli bir vəzifə olduğunu dərk etsin.Çünki ali məktəbə daxil olmaq təkcə abituriyentə yox, eyni zamanda onun valideynlərinə və müəllimlərinə, həmçinin təhsil aldığı məktəbə də şərəf gətirir. Bu həm də gələcək uğurların təməlidir.

**Gülüstan Musayeva (IV qrup, 667 bal)** – Qəbul imtahanına hazırlaşan abituriyent vaxtını dərs oxumağa, gündə nə isə yeni bir şey öyrənməyə sərf etməlidir. Onda özünə dərin inam olmalıdır. İmtahan məsuliyyət tələb edir, amma imtahandan qorxmaq lazım deyil. Əgər mövzuları yaxşı öyrənsən, özünə inamın olsa, şübhəsiz, yüksək nəticə göstərəcəksən.

**Rəvan Bağırlı (IV qrup, 665 bal)** –İmtahanlara çox ciddi hazırlaşsınlar. TQDK-nın bütün vəsaitlərindən səmərəli istifadə etsinlər. Bütün sınaq imtahanlarında iştirak etsinlər və sınaqlardakı tapşırıqları əvvəlki illərin sınaq, eləcə də qəbul imtahanlarına aid test tapşırıqları ilə müqayisə etsinlər.

**Ləman Haqverdiyeva (IV qrup, 665 bal)** – Tövsiyəm budur ki, proqram materiallarını ardıcıl və sistemli şəkildə mənimsəsinlər. Hər mövzu üzrə test tapşırıqları həll etsinlər.

**Mahmud Əzizli (IV qrup, 656 bal)** – Abituriyent öyrənməyə səy göstərərsə, mövzuların çoxluğundan, çətinliyindən qorxmayacaq. Hər hansı çətin anlaşılan mövzu ilə üzləşəndə isə müəllimlərinə müraciət etsinlər. Bir də məsləhət görürəm ki, TQDK-nın vəsaitlərindən həmişə istifadə etsinlər, "Abituriyent" jurnalında dərc olunan məsləhət və tövsiyələrə əməl etsinlər.

**Emilya Cəbizadə (IV qrup, 646 bal)** – Səbirli olmağı, əzm və həvəslə çalışmağı, heç vaxt ümidsizliyə qapılmamağı məsləhət görürəm. Hər kəs özünün real bilik səviyyəsinə uyğun ixtisas seçməlidir. Kim nəyə iddialıdırsa, ona uyğun da çalışmalı, öz arzusunu reallaşdırmaq üçün yetərli bilik nümayiş etdirməlidir.

**Xalidə Səmədli (IV qrup, 643 bal)** – Hər bir abituriyent öz qabiliyyətinə və potensialına uyğun ixtisas qrupu seçməlidir. Vaxtdan səmərəli istifadə etməli, çox zəhmətkeş və məsuliyyətli olmalıdır. Ən vacib məsələlərdən biri də imtahana psixoloji çəhətdən hazır olmaqdır. Məsələn: mən sonuncu sınaq imtahanında 677 bal topladığım halda, imtahanda keçirdiyim həyəcan üzündən 643 bal topladım. Odur ki, imtahana tam sərbəst, yüksək əhvali-ruhiyyədə və inamla getmək lazımdır.

**Qənirə Əhmədova (IV qrup, 642 bal)** – Yüksək nəticə əldə etməyin formulu belədir: məqsəd aydınlığı, çalışqanlıq və inam...Qarşınıza məqsəd qoyun: mən tələbə olacağam! Kim qarşısına belə məqsəd qoyursa və bu məqsəd üçün hər bir zəhmətə qatlaşırsa, o, öz məqsədinə çatacaqdır. Mən öz təcrübəmlə bunu təsdiq etdim.

**Aytən Yadigarlı (IV qrup, 636 bal)** – Hazırlıqlı abituriyent bildiyi mövzulara yalnız tələsdiyi və ya gərgin olduğu halda səhv cavab verə bilər. Odur ki, imtahana psixoloji hazırlıq da unudulmamalıdır. Bunun üçünsə sınaq imtahanlarında mümkün qədər çox iştirtak etmək və təcrübə qazanmaq lazımdır.

**Vaqif Kazımov (IV qrup, 635bal)** – Gecə-gündüz oxumaq şərt deyil. Başlıca şərt mövzuları başa düşərək və dərk edərək öyrənməkdir.

**Ramin Mirzəyev (IV qrup, 629 bal)** – İxtisas qrupu mümkün qədər diqqətlə seçilməli və hər bir şəxsin hazırlıq səviyyəsinə uyğun olmalıdır. Səylə oxumaq, oxuduqlarını dərk etmək və öyrənilənləri yadda möhkəm saxlamaq lazımdır.

**Sara Mahmudlu (IV qrup, 619 bal)** – Məktəbdə yaxşı oxuyarsansa, verilən tapşırıqları vaxtlı-vaxtında yerinə yetirərsənsə, heç bir kursa, repetitor yanına getmədən, müstəqil hazırlaşmaqla da tələbə adını qazanmaq olar.

**Oqtay Cəfərov (III qrup, 628 bal)** – Əziz abituriyentlər, siz ali məktəbə daxil olmaqla gələcək karyeranızın təməlini qoyursunuz. Qəbula hazırlıq işinizi öncədən elə qurun ki, nəticəniz uğurlu olsun.

## Rəylər, təkliflər, arzular

**Nicat İsazadə (I qrup, 657 bal)** - Fikrimcə, əsas fənlər üzrə bütün test tapşırıqları açıq tipli olsa yaxşı olar. Bu halda test tapşırıqlarının ümumi sayını 125-dən 100-ə endirmək olar. Belə təklif edərdim: I qrup üçün riyaziyyat və fizika fənlərinin hər birindən 25 açıq tipli test tapşırığı, Azərbaycan dili üzrə - 20, digər 2 fənnin (kimya və xarici dil) hər biri üzrə - 15 tapşırıq. Belə olarsa, imtahan üçün ayrılan 3 saat vaxt kifayət edər. İkinci təklifim Azərbaycan dili fənni üzrə tapşırıqların tərtibi ilə bağlıdır. Bəzən dialekt, şivə və arxaik sözlərlə bağlı elə tapşırıqlara rast gəlirsən ki, onlara yalnız həmin bölgələrdə yaşayan insanlar cavab verə bilər. Yaxud, bəzən elə müəlliflərdən sitat gətirilir ki, həmin müəlliflər o qədər də tanınmır.

**Nihad Əsədli (I qrup, 653 bal)** – Qəbul imtahanlarının bölgələrdə də yüksək səviyyədə, obyektiv və şəffaf keçirilməsindən çox razı qaldım.

**Rəvan Adilov (I qrup, 653 bal)** – Açıq tipli test tapşırıqları haqqında müəyyən təsəvvürlərimiz var idi və imtahanda belə tapşırıqlardan istifadə ediləcəyi məlum idi. Bu, bizi daha diqqətli olmağa, daha ciddi hazırlaşmağa sövq etdi. Bütün tapşırıqların açıq tipli olması məqsədəuyğundur.

**Gülnar Hüseynli (I qrup, 647 bal)** – Hər şeydən əvvəl, imtahanları ədalətli və şəffaf keçirdiyi üçün TQDK rəhbərliyinə öz dərin təşəkkürümü bildirirəm. Buna qarşılıq olaraq şəxsən gələcəkdə yüksəkixtisaslı mütəxəssis olacağıma söz verirəm.

Bir də istərdim ki, bütün qruplarda eyni fənlərdən açıq tipli test tapşırıqları eyni çəki əmsallı olsun.

**Tərlan Ramazanlı (I qrup, 635 bal)** – Mənim fikrimcə, əsas fənlərin üstünlük dərəcəsi artırılmalı, düşündürücü və məntiqi testlərə daha çox yer verilməlidir.

**İlkin Aslanlı (I qrup, 635 bal)** – Açıq tipli test tapşırıqları məni qane etdi. Belə tapşırıqlar qiymətləndirmədə yüksək hazırlıqlı gənclərin fərqləndirilməsi üçün imkanlar yaratmaqla yanaşı, bütövlükdə abituriyentləri keyfiyyətli bilik axtarışna səfərbər edir.

**Aynaz Mirzəzadə (I qrup, 627 bal)** – Açıq tipli test tapşırıqları abituriyentlərin müvafiq mövzu üzrə ətraflı biliyə malik olub-olmamasını obyektiv şəkildə üzə çıxarır. Təklif edərdim ki, belə test tapşırıqları bütün qruplarda digər fənlərin test blokuna da daxil edilsin.

**Sevinc Əliyeva (II qrup, 680 bal)** - Qəbul imtahanlarına hazırlığın ən yaxşı yollarından biri sınaq imtahanlarıdır. Sınaq imtahanlarının sayca artırılmasına ehtiyac vardır.

**Tural Əhmədov (II qrup, 652 bal)** - Qazandığım uğurlarda rolu olan müəllimlərimə, valideynlərimə minnətdarlığımı bildirirəm. Hesab edirəm ki, gələcək abituriyentlərin psixoloji durumuna yaxınlarının dəstəyinin müstəsna təsiri vardır. Abituriyentlər bilsin ki, onların müvəffəqiyyətini gözləyənlər və sevinənlər var.

**Mədinə Əmiraslanova (II qrup, 646 bal)** – Yaxşı olardı ki, test tapşırıqları yalnız məntiq və hesablama xarakterli olmasın, test blokuna ümumi dünyagörüşü səviyyəsini yoxlayan tapşırıqlar da daxil edilsin.

**Kamran Abdullayev (II qrup, 630 bal)** - Fikrimcə, açıq tipli test tapşırıqları bütün fənlərə daxil edilməlidir. Bu, abituriyentlərin biliyini qiymətləndirmək üçün daha etibarlı üsuldur.

**Pərvin Əzimzadə (II qrup, 629 bal)** –Açıq tipli test tapşırıqlarına münasibətim müsbətdir. Belə tapşırıqlar abituriyentləri imtahanlara daha ciddi, daha məsuliyyətli hazırlaşmağa sövq edir.

**Zahid Oruczadə (II qrup, 626 bal)** – Açıq tipli test tapşırıqları digər fənn bloklarına da salına bilər, bir şərtlə ki, hər fənn üzrə belə sualların sayı 5-dən artıq olmasın.

**Eşqin İbrahimov (II qrup, 614 bal)** – Təcrübə göstərir ki, lisey şagirdləri qəbulda daha yüksək nəticə göstərirlər. Çünki liseylərdə şagirdlərin test tapşırıqları ilə işləmək vərdişlərinə yiyələnməsinə, onlarla müntəzəm olaraq sınaq imtahanlarının keçirilməsinə xüsusi diqqət göstərilir. Digər ümumtəhsil məktəblərində də buna şərait yaratmaq lazımdır. Bir də təklif edirəm ki, TQDK hər bir fənn üzrə min və daha çox sualdan ibarət test topluları buraxsın və abituriyentlər də bu testlərlə öz biliklərini müstəqil şəkildə sınağa çəksinlər.

**Fatimə Zərbiyeva (III qrup, 670 bal)** –Bu gün şagirdlərin biliyini obyektiv qiymətləndirmək və onların arasından ən layiqlilərini seçmək TQDK-nın əsas qayğılarından biridir. TQDK həmişə olduğu kimi, bu il də üzərinə düşən həmin vəzifəni şərəflə yerinə yetirdi.

**Reyhan Ramazanova (III qrup, 668 bal)** – Mən TQDK- nı ən ədalətli və obyektiv qurumlardan biri hesab edirəm. İnanıram ki, TQDK ölkəmizdə təhsilin qiymətləndirilməsi sahəsində fəaliyyətini bundan sonra da uğurla davam etdirəcək. Arzu edərdim ki, sınaq imtahanlarının sayı artırılsın. Çünki sınaq imtahanları qəbul imtahanlarına hazırlıq üçün çox əhəmiyyətli vasitədir.

**Ləman Həsənzadə (III qrup, 660 bal)** – Gələcəkdə buraxılış imtahanlarının ali təhsil müəssisələrinə qəbul imtahanları ilə birləşdirilməsini arzu edərdim. Bu, ümumtəhsil məktəblərində təhsilin keyfiyyətinə olduqca güclü təkan verər.

**Lalə Güləliyeva (IV qrup, 671 bal)** – Mən qəbul imtahanlarının təşkili və keçirilməsindən çox razı qaldım. Bununla belə, bəzi təkliflərim də vardır. İstərdim ki, açıq tipli test tapşırıqları bütün fənlərə daxil edilsin və sualların sayı artırılsın. Faktoloji biliklərə və daha çox əzbərçilik tələb edən sullar test blokundan çıxarılsın, məntiqi təfəkkürü üzə çıxaran sualların sayı isə artırılsın. Bir də arzu edərdim ki, 650-dən yuxarı bal toplayan tələbələrin hamısına Prezident təqaüdü verilsin.

**Türkan Əliyeva (IV qrup, 668 bal)** – Yaxşı olardı ki, sınaq imtahanlarının sayı artırılsın və qəbul imtahanlarına iyun ayından başlanılsın.

**Rəvan Bağırlı (IV qrup, 665 bal)** – Dərsliklərdə və ayrı-ayrı vəsaitlərdə müəyyən elmi-metodiki səhvlər olur. "Abituriyent" jurnalının ayrı-ayrı saylarında bu səhvlərin düzəlişi dərc olunur. Ancaq bütün abituriyentlərin həmin jurnalları almağa imkanı olmur və ya onu tapa

bilmirlər. Yaxşı olar ki, dərsliklərin hazırlanmasına TQDK-nın ekspertləri də cəlb olunsun, şagirdlər və abituriyentlər qüsursuz dərsliklərdən istifadə etsinlər.

**Ləman Haqverdiyeva (IV qrup, 665 bal)** – İstərdim ki, əzbərçilik tələb edən tapşırıqların sayı minimuma endirilsin, onlar məntiqi düşüncəyə əsaslanan test tapşırıqları ilə əvəz olunsun.

**Fərid İsgəndərov (IV qrup, 637bal)** – Məncə, qəbul imtahanı dərs ilindən ən azı 7-8 ay sonra olsa, daha yaxşı nəticə əldə etmək olar. Belə olarsa, imtahana hazırlıqla məktəb dərsləri üst-üstə düşməz.

**Lalə Xankişizadə (IV qrup, 609 bal)** – Mən 609 bal toplamışam. Arzu etdiyim fakültəyə qəbul olsam da, ödənişli əsaslarla təhsil alacağam. Təklif edirəm ki, gələcəkdə dövlət sifarişli yerlərin sayı artırılsın.

**Kəmalə İbrahimova (IV qrup, 609 bal)** – IV ixtisas qrupunun imtahan fənləri sırasına xarici dil fənni də əlavə edilsin.

**Rafiq Əlizadə (IV qrup, 607 bal)** - Biologiyadan imtahana hazırlaşarkən təkamül nəzəriyyəsinə aid ziddiyyətli və bəzən də yanlış faktlara təsadüf etdim. Dərsliklər hazırlanarkən bu məsələyə xüsusi diqqət ayrılsın.

**Lalə Darçınova (III qrup, 664 bal)** – Doğrudur, imtahanlar yüksək səviyyədə keçirildi, lakin bizim imtahan zalı havasız idi. Fikrimcə, bu amil imtahan nəticələrinə əks təsirini göstərməyə bilməz. Təklif edirəm ki, seçilən imtahan otaqlarının sanitar-gigiyenik normalara cavab verməsi nəzərə alınsın.

**Mahmud Əzizli (IV qrup, 656 bal)** – Bu il TQDK-nın 20 illik yubileyidir. Bu illlər ərzində TQDK çox böyük inkişaf yolu keçib. Biz hələ aşağı siniflərdə oxuduğumuz vaxtdan TQDK-ya böyük inam bəsləyirdik. Əmin idik ki, yaxşı oxuyaraq istədiyimiz ali məktəbə qəbul olacağıq.Ümidimiz TQDK- ya olan dərin inamdan yaranmışdı. Sevinirəm ki, yanılmadıq. Təsəvvür edirsinizmi, iki qardaş eyni ildə 600-dən yuxarı balla ölkəmizin ən nüfuzlu ali məktəblərindən birinə qəbul olmuşuq. Bu dövlət qurumunun hər bir əməkdaşına, şəxsən Məleykə xanım Abbaszadəyə minnətdarlığımı bildirir və onlara fəaliyyətlərində daha böyük uğurlar arzulayıram.

**Rəfael Həzizadə (II qrup, 657 bal)** - TQDK qəbul imtahanlarını çox ədalətli keçirdi. Düşünəndə ki, bu imtahanlar təkcə Bakıda deyil, bölgələrdə də keçirilir və onlar Bakıda keçirilən imtahanlardan heç də fərqlənmir, bunun üçün nə qədər zəhmət çəkildiyini görməmək olmaz. Buna görə TQDK-nın rəhbərliyinə və bütün əməkdaşlarına təşəkkür edirəm.

**Bəhruz Səlimzadə (II qrup, 619 bal)** – Hər il minlərlə bilikli azərbaycanlı gənc TQDK-nın keçirdiyi qəbul imtahanlarında iştirak edib tələbə adını qazana bilir. İmtahanlar çox ədalətli və şəffaf keçirilir. Fürsətdən istifadə edib, TQDK-nın yaradılmasının 20 illiyi münasibəti ilə bu kollektivi ürəkdən təbrik edirəm.

**Əli Qocayev (II qrup, 614 bal)** – Mən TQDK-nın iş prinsiplərini ürəkdən bəyənirəm. Ölkəmiz üçün layiqli vətəndaşların, yüksəkixtisaslı mütəxəssislərin hazırlanmasında bu qurumun əməyi danılmazdır. TQDK-nın bütün əməkdaşlarına təşəkkürümü bildirirəm.

**Sevil Süleymanova (III qrup, 665 bal)** – Qəbul imtahanlarını bu cür ədalətli və şəffaf keçirdikləri üçün TQDK-ya, onun rəhbərliyinə abituriyentlər adından minnətdarlığımı bildirirəm. Hər il mənim kimi neçə-neçə qaçqın ailəsindən olan gənc bu qurumun obyektiv fəaliyyəti sayəsində öz arzusuna qovuşur.

**Məhsəti Əliyeva (III qrup, 664 bal)** – Qəbul imtahanlarını obyektiv keçirdiyi üçün TQDK-ya təşəkkür edirəm.

**Şəhla Aslanova (III qrup, 652 bal)** –TQDK qəbul imtahanları kimi sınaq imtahanlarını da çox ciddi və mütəşəkkil keçirir. Bu da TQDK-nın fəaliyyətinin müsbət bir göstəricisidir.

**Turxan İsmayılzadə (III qrup, 623 bal)** – Abituriyentlər üçün yaradılan normal, rahat şərait üçün TQDK-ya ürəkdən təşəkkür edirəm.

**Səbinə Yolçuyeva (IV qrup, 636 bal)** – Ölkəmizdə TQDK kimi şagird biliyini tam, hərtərəfli, ədalətli və obyektiv qiymətləndirən qurumun olmasından qürur duyuram.

**Samir Ağabalayev (I qrup, 665 bal)** - Abituriyentlərin bilik və bacarıqlarını aşkar etmək üçün tətbiq olunan qiymətləndirmə sistemi göz qabağındadır: hər kəs öz biliyinə layiq qiymət alır.

**Sadiq Əhmədov (II qrup, 664 bal)** – TQDK tələbə qəbulu prosesini çox ədalətli və obyektiv aparır. Mən bunu eşitmişdim, özüm bu prosesdə iştirak edib buna bir daha əmin oldum.

**Qərib Allahverdiyev (II qrup, 656 bal)** – TQDK əvvəlki illərdə olduğu kimi bu il də qəbul imtahanlarını çox böyük mütəşəkkilliklə keçirdi. Mən 656 balla öz arzuma qovuşdum. Bizə bu cür obyektiv şərait yaratdığı üçün TQDK-ya təşəkkür edirəm.

**İlqar Həşimov (II qrup, 651bal)** – Artıq mən tələbəyəm. Sevincimi hazırlığımda əməyi olan hər kəslə bölüşürəm: müəllimlərimlə, valideynlərimlə və dostlarımla. İmtahanı çox yüksək səviyyədə təşkil etdiyinə görə TQDK-ya minnətdaram.

**Nihad Ağazadə (II qrup, 645bal)** – Artıq TQDK qəbul imtahanlarını bölgələrdə də keçirir. Bölgələrdə yaşayan abituriyentlər əlavə vaxt itirmədən, əziyyət çəkmədən qəbul imtahanını öz yaşadıqları rayonda və ya onlara yaxın ərazidə verə bilirlər. Bu, bizim üçün həm də müsbət psixoloji amildir.

**Bəsti Qasımova (III qrup, 673 bal)** – Mən yüksək balla ölkəmizin ən nüfuzlu ali məktəblərinin birinə - Bakı Dövlət Universitetinin hüquq fakültəsinə qəbul olmuşam. Doğrudur, mən bu nəticəyə nail olmaq üçün çox çalışmışam, vaxtımı həmişə oxumağa, öyrənməyə sərf etmişəm. Amma uğur qazanmağımda böyük rolu olan Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının fəaliyyətini də çox yüksək qiymətləndirirəm. Bizə yaratdıqları əlverişli şəraitə görə Komissiyanın əməkdaşlarına ürəkdən təşəkkür edirəm.

*Materialı hazırlamışlar:*
*Rabil Novruzov, Akif Əhmədov*

# YÜKSƏK NƏTİCƏ GÖSTƏRMİŞ ABİTURİYENTLƏR

# I QRUP



## RƏHİMOV RZA RASİM OĞLU

690 balla Bakı Ali Neft məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Naxçıvan MR Şərur rayonu Ərəbyengicə kənd tam orta məktəbinin məzunudur.



## ORUCZADƏ KAMİL ŞAMİL OĞLU

690 balla «Qafqaz» Universitetinin «Kompyuter mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 91 saylı tam orta məktəbin məzunudur.



## ƏLİYEVA KƏMALƏ KAMAL QIZI

687 balla Bakı Dövlət Universitetinin «Riyaziyyat» ixtisasına qəbul olub.
Bakı şəhəri 287 saylı «Zəkalar» liseyinin məzunudur.



## İBRAHİMOV NİCAT İLRƏVAN OĞLU

685 balla «Qafqaz» Universitetinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 287 saylı «Zəkalar» liseyinin məzunudur.



## NURİ TALEH TACƏDDİN OĞLU

685 balla «Qafqaz» Universitetinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı Türk liseyinin (BDU-nun nəzdində, təsisçi Türkiyə Dəyanət Vəqfi) məzunudur.



## ALLAHVERDİYEV BƏXTİYAR BABA OĞLU

682 balla Bakı Ali Neft məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 17 saylı tam orta məktəbin məzunudur.



## NOVRUZLU ELBRUS NAMİQ OĞLU

680 balla Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının «Kompyuter elmləri» ixtisasına qəbul olub.
Naxçıvan türk liseyinin məzunudur.



## VƏLİYEV AYDIN KƏRƏM OĞLU

677 balla Bakı Ali Neft məktəbinin «Neft-qaz mühəndisliyi»ixtisasına qəbul olub.
Bakı şəhəri 146 saylı tam orta məktəbin məzunudur.



## HAQVERDİYEVA GÜLŞƏN XUDAVERDİ QIZI

677 balla «Qafqaz» Universitetinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 182 saylı tam orta məktəbin məzunudur.



## SADIQOV ELTUN ARİF OĞLU

676 balla Bakı Ali Neft məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Ağcabədi rayonu M.Həsənov adına Rəncbərlər kənd tam orta məktəbinin məzunudur.



## SƏLİMOVA PƏRNAZ ADİL QIZI

675 balla Bakı Ali Neft məktəbinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Sumqayıt şəhəri Təbiət elmləri təmayüllü gimnaziyanın məzunudur.



## MİRZƏYEV TAMERLAN İFTİXAR OĞLU

675 balla «Qafqaz» Universitetinin «Kompyuter mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı Özəl türk liseyinin Quba filialının məzunudur.



## SOLTANOVA AİDƏ RAMİZ QIZI

675 balla Bakı Ali Neft məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Sumqayıt şəhəri Təbiət elmləri təmayüllü gimnaziyanın məzunudur.



## ORUCOV QURBAN İBRAHİM OĞLU

675 balla Bakı Ali Neft məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri Akademik Z.Əliyeva adına tam orta məktəbin məzunudur.



## MURADOV KAMRAN FUAD OĞLU

675 balla «Qafqaz» Universitetinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Laçın rayonu 18 saylı tam orta məktəbin məzunudur.



## İSAZADƏ NURLAN NAMİK OĞLU

675 balla «Qafqaz» Universitetinin «Kompyuter mühəndisliyi» ixtisasına qəbul olub.
Lənkəran rayonu 7 saylı şəhər tam orta məktəbinin məzunudur.



## ZİNHARLI EŞQİN ADİL OĞLU

670 balla Bakı Ali Neft məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Sumqayıt şəhəri 13 saylı tam orta məktəbin məzunudur.



## İBRAHİMLİ NƏRMİN SABİR QIZI

670 balla «Qafqaz» Universitetinin «Kompyuter mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 191 saylı tam orta məktəbin məzunudur.



## ƏLİYEV CAHANGİR SALEH OĞLU

670 balla Bakı Ali Neft məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 141 saylı tam orta məktəbin məzunudur.



## MƏMMƏDLİ AYTƏN ƏHMƏD QIZI

669 balla «Qafqaz» Universitetinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 254 saylı tam orta məktəbin məzunudur.



## RƏŞİDOV ANAR MƏRDAN OĞLU

667 balla Bakı Dövlət Universitetinin «Kompyuter elmləri» ixtisasına qəbul olub.
Şirvan şəhəri N.Quliyev adına 9 saylı şəhər tam orta məktəbinin məzunudur.



## SARAYEV QALİB YAŞAR OĞLU

667 balla «Qafqaz» Universitetinin «Kompyuter mühəndisliyi» ixtisasına qəbul olub.
Balakən rayonu Texniki Humanitar təmayüllü liseyin məzunudur.

# I QRUP





## TƏRLANLI ÜMİD ELMAN OĞLU

667 balla Bakı Ali Neft məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 207 saylı tam orta məktəbin məzunudur.



## AĞABALAYEV SAMİR ƏJDƏR OĞLU

665 balla Bakı Ali Neft məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Quba rayonu Aşağı Atuc kənd tam orta məktəbinin məzunudur.



## ƏLİLİ ƏLİQULU MAHMUD OĞLU

665 balla «Qafqaz» Universitetinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
İsmayıllı rayonu Lahıc qəsəbə tam orta məktəbinin məzunudur.



## HƏSRƏTLİ XANIM HƏZRƏT QIZI

665 balla Bakı Dövlət Universitetinin «Riyaziyyat» müəllimliyi ixtisasına qəbul olub.
Mingəçevir şəhəri İ.Qayıbov adına 10 saylı şəhər tam orta məktəbinin məzunudur.



## ALLAHVERDİYEVA SÜBHANƏ MEHMAN QIZI

665 balla Bakı Ali Neft məktəbinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 201 saylı tam orta məktəbin məzunudur.



## ƏSGƏROVA SARA VAQİF QIZI

665 balla «Qafqaz» Universitetinin «Riyaziyyat» və informatika müəllimliyi ixtisasına qəbul olub.
Samux rayonu H.Zərdabi adına Çobanabdallı kənd tam orta məktəbinin məzunudur.



## HÜSÜZADƏ FƏHMİN ƏKBƏR OĞLU

665 balla Bakı Ali Neft məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 160 saylı klassik gimnaziyanın məzunudur.



## MƏMMƏDOV MAHMUD YAŞAR OĞLU

665 balla Bakı Ali Neft məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı Özəl türk liseyinin Quba filialının məzunudur.



## SƏMƏDZADƏ RƏSUL RÜSTƏM OĞLU

664 balla Bakı Ali Neft məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı Avropa liseyinin məzunudur.



## MƏMİYEVA GÜLAY VİDADİ QIZI

662 balla Azərbaycan Dövlət Neft Akademiyasının «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 286 saylı tam orta məktəbin məzunudur.



## ALLAHVERDİYEV ƏBUTALİB RAHİB OĞLU

662 balla Bakı Ali Neft məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin məzunudur.



## ƏLİYEV FƏRRUX TƏRLAN OĞLU

662 balla Bakı Ali Neft məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 239 saylı tam orta məktəbin məzunudur.



### ƏHMƏDOV ELTUN YAŞAR OĞLU

660 balla «Qafqaz» Universitetinin «Kompyuter mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı Özəl türk liseyinin Ağdaş filialının məzunudur.



### ÇİGƏLİYEV ELXAN ƏJDƏR OĞLU

660 balla Bakı Ali Neft məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 81 saylı tam orta məktəbin məzunudur.



### TAPDIQOV HİLAL BƏXTİYAR OĞLU

660 balla Bakı Ali Neft məktəbinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı Özəl türk liseyinin Şirvan filialının məzunudur.



### ƏLİYEV AZƏRİ UMUT OĞLU

660 balla Bakı Ali Neft məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri Kimya-biologiya təmayüllü liseyin məzunudur.



### MƏMMƏDOV ELVİN RAFAİL OĞLU

660 balla Bakı Ali Neft məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri Akademik Z.Əliyeva adına tam orta məktəbin məzunudur.



### ABDURAHMANOV MƏCNUN ƏBÜLFƏZ OĞLU

659 balla «Qafqaz» Universitetinin «Kompyuter mühəndisliyi» ixtisasına qəbul olub.
Qəbələ rayonu Y.Vəliyev adına Əmirvan kənd tam orta məktəbinin məzunudur.



### MÜZƏFFƏROV SAMİR RÖVŞƏN OĞLU

659 balla Bakı Ali Neft məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Ağdaş rayonu T.İsmayılov adına 8 saylı şəhər tam orta məktəbinin məzunudur.



### SƏRXANOV NURLAN FƏRHAD OĞLU

657 balla «Qafqaz» Universitetinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Şamaxı rayonu Texniki, humanitar və təbiət fənləri təmayüllü internat tipli liseyin məzunudur.



### İSAZADƏ NİCAT RAMİZ OĞLU

657 balla Bakı Dövlət Universitetinin «Kompyuter elmləri» ixtisasına qəbul olub.
BDU-nun nəzdində «Gənc istedadlar» liseyinin məzunudur.



### MƏMMƏDOV RƏŞAD ƏLİBƏY OĞLU

656 balla «Qafqaz» Universitetinin «Kompyuter mühəndisliyi» ixtisasına qəbul olub.
Lerik rayonu Lerik şəhər 3 saylı tam orta məktəbinin məzunudur.



### BƏKİRLİ TƏRLAN ƏLİSAHAB OĞLU

655 balla «Qafqaz» Universitetinin «Kompyuter mühəndisliyi» ixtisasına qəbul olub.
Naxçıvan türk liseyinin məzunudur.



### İSMAYILZADƏ NİCAT RƏHİMULLA OĞLU

655 balla «Qafqaz» Universitetinin «Kompyuter mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı Türk liseyinin (BDU-nun nəzdində, təsisçi Türkiyə Dəyanət Vəqfi) məzunudur.



## PİRİYEV MÜŞFİQ TOFİQ OĞLU

655 balla Bakı Ali Neft məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Şəki rayonu 5 saylı şəhər tam orta məktəbinin məzunudur.



## GÖYÜŞOV ŞAİQ FAİQ OĞLU

655 balla Bakı Ali Neft məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Sumqayıt şəhəri Təbiət elmləri təmayüllü gimnaziyanın məzunudur.



## ƏSƏDLİ NİHAD ƏLİBALA OĞLU

653 balla «Qafqaz» Universitetinin «Kompyuter mühəndisliyi» ixtisasına qəbul olub.
Lənkəran rayonu 7 saylı şəhər tam orta məktəbinin məzunudur.



## MAHMUDOV YƏHYA AKİM OĞLU

652 balla Bakı Ali Neft məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 249 saylı tam orta məktəbin məzunudur.



## MƏMMƏDLİ CAVİD NÜSRƏT OĞLU

652 balla «Qafqaz» Universitetinin «Kompyuter mühəndisliyi» ixtisasına qəbul olub.
Kəlbəcər rayonu 10 saylı tam orta məktəbin məzunudur.



## ABUZƏRLİ MURAD İFTİXAR OĞLU

652 balla Bakı Ali Neft məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı Avropa liseyinin məzunudur.
Xaricdə təhsil alır.



## HƏSƏNOV ELDAR RÜFƏT OĞLU

652 balla «Qafqaz» Universitetinin «Kompyuter mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 191 saylı tam orta məktəbin məzunudur.



## BALAŞOV RƏHİM SƏDRƏDDİN OĞLU

650 balla Bakı Ali Neft məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 207 saylı tam orta məktəbin məzunudur.



## ABDULLAYEV ANAR NAZİM OĞLU

650 balla Bakı Ali Neft məktəbinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı Türk liseyinin (BDU-nun nəzdində, təsisçi Türkiyə Dəyanət Vəqfi) məzunudur. Xaricdə təhsil alır.



## MƏMMƏDOVA AMAİL BƏHMAN QIZI

650 balla Bakı Ali Neft məktəbinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri Kimya-biologiya təmayüllü liseyin məzunudur.



## XASİYEV FƏRİD VAQİF OĞLU

650 balla Bakı Ali Neft məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Sumqayıt şəhəri 33 saylı tam orta məktəbin məzunudur.



## SALAHLI ZÜLEYXA ELÇİN QIZI

648 balla Bakı Ali Neft məktəbinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Naxçıvan MR Şahbuz rayonu A.H.Quliyev adına Kükü kənd tam orta məktəbinin məzunudur.



### ADİLOV RƏVAN TARİYEL OĞLU

648 balla Bakı Ali Neft məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 1 saylı tam orta məktəbin məzunudur.



### MANSUROV ANAR İBRAHİM OĞLU

648 balla «Qafqaz» Universitetinin «Kompyuter mühəndisliyi» ixtisasına qəbul olub.
Şəki Azərbaycan-Türkiyə özəl liseyinin məzunudur.



### HÜSEYNLİ GÜLNAR MƏZAHİR QIZI

647 balla Bakı Ali Neft məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Şəmkir rayonu Füzuli adına şəhər tam orta məktəbinin məzunudur.



### XƏLİL-ZADƏ XƏZƏR AZƏR OĞLU

647 balla Bakı Ali Neft məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri Akademik Z.Əliyeva adına tam orta məktəbin məzunudur.



### RƏHİMLİ ROMAN VİDADİ OĞLU

647 balla Bakı Ali Neft məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı Özəl türk liseyinin Ağdaş filialının məzunudur.



### ƏLİYEVA XƏYALƏ NATİQ QIZI

647 balla Bakı Ali Neft məktəbinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 245 saylı tam orta məktəbin məzunudur.



### FƏRƏCLİ CEYHUN ARİF OĞLU

647 balla Bakı Ali Neft məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri Akademik Z.Əliyeva adına tam orta məktəbin məzunudur.



### NOVRUZOV TUNAY MEHMAN OĞLU

647 balla «Qafqaz» Universitetinin «Kompyuter mühəndisliyi» ixtisasına qəbul olub.
Ə.Mahmudov adına Şərur türk liseyinin məzunudur.



### ƏSGƏRLİ NATƏVAN ELÇİN QIZI

647 balla Bakı Ali Neft məktəbinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 145 saylı tam orta məktəbin məzunudur.



### MURADOV RİYAD SABİR OĞLU

645 balla Bakı Ali Neft məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri Akademik Z.Əliyeva adına tam orta məktəbin məzunudur.



### HÜSEYNOVA QIZILGÜL ALXAS QIZI

645 balla Bakı Ali Neft məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri F.Qədimov adına 222 saylı orta məktəbin məzunudur.



### BUTDAYEV SƏRXAN HİKMƏT OĞLU

644 balla «Qafqaz» Universitetinin Fizika müəllimliyi ixtisasına qəbul olub.
Zaqatala rayonu 1 saylı şəhər tam orta məktəbinin məzunudur.



## ZAMANLI NURAL RAZİM OĞLU

644 balla Bakı Ali Neft məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 115 saylı tam orta məktəbin məzunudur.



## TAĞIYEV MÜRSƏL AQİL OĞLU

644 balla xüsusi təyinatlı ali təhsil müəssisəsinə qəbul olub.
BDU-nun nəzdində «Gənc istedadlar» liseyinin məzunudur.



## İSMAYILZADƏ RƏSUL YUSİF OĞLU

642 balla Bakı Ali Neft məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Ağdaş rayonu Qolqatı kənd tam orta məktəbinin məzunudur.



## MƏMMƏDLİ RƏŞAD İSMİXAN OĞLU

642 balla Bakı Ali Neft məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri Fizika, riyaziyyat və informatika təmayüllü liseyin məzunudur.



## ƏLİZADƏ KÖNÜL HİLAL QIZI

642 balla Bakı Ali Neft məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 259 saylı tam orta məktəbin məzunudur.



## HÜSEYNLİ ELDAR RZA OĞLU

642 balla Bakı Ali Neft məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 296 saylı tam orta məktəbin məzunudur.



## MƏMİŞOV RAMİL ZAKİR OĞLU

642 balla Bakı Ali Neft məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 138 saylı tam orta məktəbin məzunudur.



## KƏRİMLİ NAZİM FAZİL OĞLU

642 balla Bakı Ali Neft məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 287 saylı «Zəkalar» liseyinin məzunudur.



## İSMAYILOV MEHMAN PƏNAH OĞLU

641 balla «Qafqaz» Universitetinin «Kompyuter mühəndisliyi» ixtisasına qəbul olub.
Şamaxı rayonu Texniki, humanitar və təbiət fənləri təmayüllü internat tipli liseyin məzunudur.



## QAFAROV ARZU QADİR OĞLU

641 balla Bakı Ali Neft məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 287 saylı «Zəkalar» liseyinin məzunudur.



## QASIMOVA AYTƏKİN NAMİQ QIZI

641 balla Bakı Ali Neft məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı Türk liseyinin (BDU-nun nəzdində, təsisçi Türkiyə Dəyanət Vəqfi) məzunudur.



## MƏMMƏDOVA OFELİYA ELDAR QIZI

640 balla Bakı Ali Neft məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri Akademik Z.Əliyeva adına tam orta məktəbin məzunudur.



## TAĞIYEVA TURANƏ KƏRİM QIZI

640 balla Azərbaycan Dövlət Neft Akademiyasının «İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi» ixtisasına qəbul olub. Gəncə şəhəri 46 saylı şəhər tam orta məktəbinin məzunudur.



## ƏLİYEV SULTAN HƏSRƏT OĞLU

638 balla Bakı Ali Neft məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Xaçmaz rayonu Yeni Həyat kənd tam orta məktəbinin məzunudur.



## MƏCİDLİ İMRAN TAHİR OĞLU

638 balla Bakı Ali Neft məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 132-134 nömrəli təhsil kompleksinin məzunudur.



## KƏRİMLİ RƏVAN CEYHUN OĞLU

637 balla Bakı Ali Neft məktəbinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 132-134 nömrəli təhsil kompleksinin məzunudur.



## MƏMMƏDOV ƏLİ XANLAR OĞLU

637 balla Bakı Ali Neft məktəbinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı Özəl türk liseyinin məzunudur.



## ƏLİYEV KAMRAN FAİQ OĞLU

637 balla Bakı Ali Neft məktəbinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 2 saylı orta texniki və humanitar elmlər liseyinin məzunudur.



## BƏŞİRZADƏ SEYMUR RAZİM OĞLU

637 balla Azərbaycan Memarlıq və İnşaat Universitetinin «İnşaat mühəndisliyi» ixtisasına qəbul olub.
Tovuz rayonu E.Süleymanov adına Kirən kənd tam orta məktəbinin məzunudur.



## MƏMMƏDOV İBRAHİM VİLAYƏT OĞLU

636 balla Bakı Ali Neft məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Tovuz rayonu M.Musayev adına Əlimərdanlı kənd tam orta məktəbinin məzunudur.



## QAFAROV SAHİB TARİYEL OĞLU

635 balla Bakı Ali Neft məktəbinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Naxçıvan MR Ordubad rayonu M.Kərimov adına Tivi kənd tam orta məktəbinin məzunudur.



## ƏLİYEV FARİZ RAUF OĞLU

635 balla Bakı Ali Neft məktəbinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 322 saylı tam orta məktəbin məzunudur.



## QASIMOV NİCAT İSMAYIL OĞLU

635 balla Bakı Ali Neft məktəbinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Yevlax rayonu Nərimanov adına 9 saylı şəhər tam orta məktəbinin məzunudur.



## ŞABANOVA MƏDİNƏ QURBAN QIZI

635 balla Bakı Ali Neft məktəbinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Zaqatala rayonu 3 saylı şəhər tam orta məktəbinin məzunudur.



## SƏRKAROVA KAMİLLA KAMİLYEVNA

635 balla M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialı «Riyaziyyat» ixtisasına qəbul olub.
Bakı şəhəri 160 saylı klassik gimnaziyanın məzunudur.



## RAMAZANLI TƏRLAN RİZVAN OĞLU

635 balla Bakı Ali Neft məktəbinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 289 saylı tam orta məktəb -«Zəngi» liseyinin məzunudur.



## ABBASLI MƏDƏD QURBAN OĞLU

634 balla «Qafqaz» Universitetinin «Fizika müəllimliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 159 saylı tam orta məktəbin məzunudur.



## TEYMUROVA SƏBİNƏ TAHİR QIZI

634 balla Bakı Ali Neft məktəbinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Bərdə rayonu F.Sadıqov adına Qaradəmirçi kənd tam orta məktəbinin məzunudur.



## MUSAYEV FƏRİD ELÇİN OĞLU

634 balla Bakı Ali Neft məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 132-134 nömrəli təhsil kompleksinin məzunudur.



## HÜSEYNOV RÖVŞƏN ŞAHİN OĞLU

634 balla «Qafqaz» Universitetinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı Özəl türk liseyinin Ağdaş filialının məzunudur.



## ƏSƏDOV NƏSİR ARAZ OĞLU

634 balla «Qafqaz» Universitetinin «Mexanika mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri Akademik Z.Əliyeva adına tam orta məktəbin məzunudur.



## ƏSLİYEVA GÜNAY ELMAN QIZI

634 balla Bakı Ali Neft məktəbinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 299 saylı tam orta məktəbin məzunudur.



## HACIYEV RUSLAN AFİZ OĞLU

633 balla Bakı Ali Neft məktəbinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 85 saylı tam orta məktəbin məzunudur.



## YAHYAYEVA NƏRMİNƏ BORİSOVNA

632 balla M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialı «Riyaziyyat» ixtisasına qəbul olub.
Bakı Avropa liseyinin məzunudur.



## İSGƏNDƏRLİ MEHRAN MƏNSUR OĞLU

632 balla Bakı Ali Neft məktəbinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Göyçay rayonu R.Rza adına 1 saylı şəhər tam orta məktəbinin məzunudur.



## ABBASOV NİZAMİ İLHAM OĞLU

632 balla Bakı Ali Neft məktəbinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı Türk Anadolu liseyinin məzunudur. Xaricdə təhsil alır.



## QƏRİBZADƏ ELVİN QƏRİB OĞLU

632 balla Bakı Dövlət Universitetinin «Kompyuter elmləri» ixtisasına qəbul olub.
Sumqayıt şəhəri 8 saylı tam orta məktəbin məzunudur.



## İBRAHİMOV SƏNAN İLHAM OĞLU

632 balla Bakı Ali Neft məktəbinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 25 saylı tam orta məktəbin məzunudur.



## İMANLI SUQRA RƏVAYƏT QIZI

631 balla Naxçıvan Dövlət Universitetinin «Riyaziyyat və informatika müəllimliyi» ixtisasına qəbul olub.
Naxçıvan MR Babək rayonu V.Mahmudov adına Babək qəsəbə tam orta məktəbinin məzunudur.



## CƏFƏROVA NƏRMİN ELÇİN QIZI

631 balla Bakı Ali Neft məktəbinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 292 saylı tam orta məktəbin məzunudur.



## MƏMMƏDOV SALEH MEHMAN OĞLU

631 balla «Qafqaz» Universitetinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 26 saylı tam orta məktəbin məzunudur.



## QULİYEVA ÇİNARƏ RÖVŞƏN QIZI

630 balla Bakı Ali Neft məktəbinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Sumqayıt şəhəri Təbiət elmləri təmayüllü gimnaziyanın məzunudur.



## BAXŞİYEV RİYAD FUAD OĞLU

630 balla Bakı Ali Neft məktəbinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 176 saylı tam orta məktəbin məzunudur.



## SƏMƏDOV RAFAEL TAĞI OĞLU

629 balla Bakı Ali Neft məktəbinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 86 saylı tam orta məktəbin məzunudur.



## ASLANLI İLKİN RAFİQ OĞLU

629 balla Bakı Ali Neft məktəbinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 170 saylı tam orta məktəbin məzunudur.



## İSKƏNDƏROV CAVAD SAHİR OĞLU

629 balla Bakı Ali Neft məktəbinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 319 saylı tam orta məktəbin məzunudur.



## MƏLİKMƏMMƏDOV ELŞƏN AZAD OĞLU

628 balla Bakı Dövlət Universitetinin «Kompyuter elmləri» ixtisasına qəbul olub.
Bakı Özəl türk liseyinin Quba filialının məzunudur.



## ƏSGƏROV MUSTAFA HEYDƏR OĞLU

627 balla Bakı Ali Neft məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 285 saylı tam orta məktəbin məzunudur.

# I QRUP



## MİRZƏZADƏ AYNAZ İSLAM QIZI

627 balla Bakı Ali Neft məktəbinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri Akademik Z.Əliyeva adına tam orta məktəbin məzunudur.



## QƏLƏNDƏRLİ ƏHMƏD ZÜLFÜQAR OĞLU

627 balla Bakı Ali Neft məktəbinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 141 saylı tam orta məktəbin məzunudur.



## AMANOVA NƏRGİZ RASİM QIZI

627 balla Bakı Ali Neft məktəbinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 280 saylı tam orta məktəbin məzunudur.



## PAŞAYEV EMİL AQŞİN OĞLU

627 balla Bakı Ali Neft məktəbinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 146 saylı tam orta məktəbin məzunudur.



## ABASOV FƏRİD AZƏR OĞLU

626 balla Bakı Dövlət Universitetinin «Kompyuter elmləri» ixtisasına qəbul olub.
Bakı şəhəri 30 saylı tam orta məktəbin məzunudur.



## MİRZƏYEV ELŞAD NURƏDDİN OĞLU

626 balla Bakı Ali Neft məktəbinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Tovuz rayonu Z.Məmmədov adına Sarıtala kənd tam orta məktəbinin məzunudur.



## BODE İRİNA İQOREVNA

625 balla Bakı Ali Neft məktəbinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri Akademik Z.Əliyeva adına tam orta məktəbin məzunudur.



## XƏLİLOV XƏLİL CƏLAL OĞLU

625 balla Bakı Ali Neft məktəbinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı Özəl türk liseyinin Şirvan filialının məzunudur.



## ƏSGƏROVA LAÇIN VAQİF QIZI

625 balla Bakı Dövlət Universitetinin «Riyaziyyat» müəllimliyi ixtisasına qəbul olub.
Salyan rayonu Yuxarı Xalac kənd 1 saylı tam orta məktəbinin məzunudur.



## PİŞYARİ LEYLA AZƏR QIZI

624 balla Bakı Ali Neft məktəbinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri Akademik Z.Əliyeva adına tam orta məktəbin məzunudur.



## BİLALOV ZAUR AYAZ OĞLU

623 balla Azərbaycan Dövlət Neft Akademiyasının «Proseslərin avtomatlaşdırılması mühəndisliyi (TEMPUS layihəsi)» ixtisasına qəbul olub.
Oğuz rayonu Xaçmazqışlaq kənd tam orta məktəbinin məzunudur.



## QİYASOV AZƏR AĞACAN OĞLU

622 balla Milli Aviasiya Akademiyasının «Uçuş mühəndisliyi (təyyarə)» ixtisasına qəbul olub.
Bakı özəl türk kompüter liseyi «Dədə Qorqud» filialının məzunudur.



### ŞİRİNOVA NƏRMİN RƏHİM QIZI

622 balla Bakı Dövlət Universitetinin «Kompyuter elmləri» ixtisasına qəbul olub.
Bakı şəhəri Fizika, riyaziyyat və informatika təmayüllü liseyin məzunudur.



### YEKİBAŞOVA ELGÜL ŞAHMƏRDAN QIZI

621 balla «Qafqaz» Universitetinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Zaqatala rayonu Tala kənd 3 saylı tam orta məktəbinin məzunudur.



### YOLÇİYEVA SİMUZƏR MEHMAN QIZI

621 balla Bakı Ali Neft məktəbinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 287 saylı «Zəkalar» liseyinin məzunudur.



### VƏLİLİ RƏŞAD SABİR OĞLU

620 balla «Qafqaz» Universitetinin «Mexanika mühəndisliyi» ixtisasına qəbul olub.
Sumqayıt şəhəri Sumqayıt şəhər evdə fərdi təhsil məktəbinin məzunudur.



### ŞƏRBƏTOV SEYRAN UMRƏDDİN OĞLU

620 balla Bakı Ali Neft məktəbinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Lerik rayonu Vizəzəmin kənd tam orta məktəbinin məzunudur.



